# Ey Sünnə əhli bir-birinizlə mehriban davranın

Müəllif:
Abdul-Muhsin əl-Abbad

# Rəhimli və Mərhəmətli Allahın adı ilə

Həmd yalnız möminlərin qəlblərini birləşdirən, onları bir araya gəlməyə və birləşməyə rəğbətləndirən, parçalanma və ixtilafdan çəkindirən Allaha məxsusdur. Şəhadət verirəm ki, Allahdan başqa ibadət haqqına layiq məbud yoxdur, O, təkdir və Onun şəriki də yoxdur. O, yaradıb təqdir etmiş, qanunlar buyurub onları asanlaşdırmış və möminlərə qarşı da rəhimlidir. Həmçinin şəhadət verirəm ki, Muhəmməd Onun qulu və elçisidir. O elçi ki, insanlara asanlaşdırmağı və müjdələməyi əmr edərək demişdir: "Asanlaşdırın, çətinləşdirməyin, müjdələyin, qaçırtmayın." Allahım ona, onun pak ailəsinə, kafirlərə qarşı şiddətli, öz aralarında isə rəhimli olmaları ilə vəsf olunmuş səhabələrinə, habelə Qiyamət gününədək onlara gözəl bir tərzdə tabe olanlara salavat və salam göndər və onları bərəkətli et. Allahım mənə hidayət ver, mənim üçün hidayət nəsib et və mənimlə də insanlara hidayət ver. Allahım qəlbimi kin-küdurətdən təmizlə, dilimi də doğru söz söyləməyə müvəffəq et. Allahım azmaqdan və ya azdırmaqdan, səhv etməkdən və ya etdirməkdən, haqsızlıq etməkdən və ya haqsızlığa məruz qalmaqdan, habelə cahillikdən və ya cahilliyə məruz qalmaqdan Sənə sığınıram.

Şəkk yoxdur ki, Əhli Sünnə val-cəməa Rəsulullahın ﷺ və onun səhabələrinin yolunu gedənlərdir. Onların

Peyğəmbərin ﷺ sünnəsinə nisbət olunmalarına və ondan möhkəm yapışmalarına onun aşağıdakı hədisi əsas verir: “Mənim və məndən sonra hidayətə yönəldən raşidi xəlifələrimin sünnəsinə əməl edin. Bu sünnədən arxa dişlərinizlə yapışın.” Həmçinin Peyğəmbər ﷺ sünnəyə müxalif olmaqdan çəkinməyi də əmr edərək demişdir: “Yeniliklərdən çəkinin, şübhəsiz ki, hər bir yenilik bidət, hər bir bidət isə zəlalətdir.” Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Kim mənim sünnəmdən üz döndərərsə məndən deyil.” Peyğəmbərin ﷺ və onun səhabələrinin yolu ilə getməyən bidət və zəlalət əhlinin halı isə belə deyil. Belə ki, Əhli Sünnənin əqidəsi Peyğəmbərin ﷺ göndərilməsindən sonra yarandığı halda bidət əhlinin əqidəsi onun vəfatından sonra yaranmışdır. Onlardan bəziləri səhabələrin son dönəmlərində, digərləri isə bundan sonra yaranmışdır. Peyğəmbər ﷺ sağ qalacaq səhabələrinin bu parçalanma və ixtilafı görəcəklərini xəbər verərək “Sizlərdən yaşayanlarınız bir çox ixtilaflara şahid olacaqlar” - demiş, sonra da onları doğru yolu tutub getməyə, yəni onun və raşidi xəlifələrinin sünnəsinə tabe olmağa yönəltmiş, eyni zamanda yeniliklərdən çəkinməyi buyurmuş və bunun zəlalət olduğunu bildirmişdir. Çünki səhabələrin haqdan və doğru yoldan bixəbər olmaları, onlardan sonra gələnlərin isə bunlardan xəbər tutmaları nə ağla sığan bir şeydir, nə də ki, qəbul olunandır. Odur ki, sonradan əmələ gəlmiş bütün yeniliklər şərdir. Əgər həmin yeniliklərdən hər hansı birində xeyir olsaydı onu ilk olaraq səhabələr edər-

dilər. Lakin bütün bidətlər şərdir və səhabələrin yolundan kənara çıxan, onlardan sonra gəlmiş insanların əksəriyyəti bu bəlaya düçar olublar. İmam Malik demişdir: "Bu ümmətin əvvəli nəyin sayəsində düzəlmişdirsə, axırı da yalnız onunla düzələ bilər." Buna görə də Peyğəmbərin ﷺ yolunu gedən müsəlmanlar məhz sünnəyə nisbət olunduqları halda, bidət əhli ya Cəbriyyə, Qədəriyyə, Murciə və İmamiyyə kimi öz batil yollarına, ya da Cəhmiyyə, Zeydiyyə, Əşari və İbadilər kimi müəyyən şəxslərə nisbət olunurlar. Muhəmməd ibn Abdulvəhhaba nisbət edilən "vəhabi" sözü isə bu qəbildən deyildir. Çünki nə şeyx Muhəmməd ibn Abdulvəhhabın dönəmindəki, nə də sonrakı dövrdə yaşayan sünnə əhli özlərinə belə bir ad verməmişlər. Çünki şeyx özündən yeni bir şey çıxarmamışdır ki ona nisbət edilsin, əksinə, o sələfin yoluna tabe olmuş və sünnəni ihya edərək yaymış və ona dəvət etmişdır. Bu adı şeyx Muhəmməd ibn Abdulvəhhabın apardığı dəvətə nifrət edən kəslər, insanların fikrini yayındıraraq onları haqq və hidayətdən uzaqlaşdırmaq, habelə onları əhli Sünnə vəl-cəməaya müxalif olan bidət əhlinin yolunu davam etməyə yönəltmək məqsədi ilə icad etmişlər.

İmam Şatibi "əl-İtisam"[1] əsərində demişdir: "Abdurrəhman ibn Mehdi demişdir: İmam Malik ibn Ənəsdən Sünnə barəsində soruşulduqda o demişdir: Bu elə bir məfhumdur ki, onun Sünnədən savayı adı yoxdur. Sonra

[1] əl-İtisam (1/79).

o, bu ayəni oxudu: **"Bu, Mənim doğru yolumdur, onu tutub gedin. Başqa yollara uymayın. Çünki,** ***o yollar*** **sizi Allahın yolundan uzaqlaşdırar."**[1]

İbn əl-Qeyyim "Mədaricus-Salikin" əsərində[2] demişdir: "Alimlərdən biri Sünnə barəsində soruşulduqda belə cavab verdi: "Bu Sünnədən savayı adı olmayan bir şeyə deyilir. Yəni Sünnədən başqa ikinci bir ad yoxdur ki Əhli Sünnə ona nisbət olunsun."

İbn Abdul-Bərr "əl-İntiqa" əsərində[3] demişdir: "Bir nəfər Malikdən soruşur ki; Əhli Sünnə kimdir? O da cavabında deyir ki: Əhli Sünnənin heç bir ləqəbi yoxdur, onlar nə Cəhmidirlər, nə Qədəri, nə də ki Rafizi."

Şübhəsiz ki, hər bir zaman və məkanda Sünnə əhlinin öz aralarında rəhimli və mehriban olmalı, yalnız yaxşılıq və təqva üzərində əməkdaşlıq etmələri vacibdir.

Əfsuslar olsun ki, bu günkü gündə bəzi əhli Sünnə nümayəndələri amansızlıq və ixtilaf nümayiş etdirməkdədirlər. Onlar yalnız bir-birilərinin səhvlərini araşdırır, insanları bir-birilərindən çəkindirir və bir-birlərini tərk edib uzaqlaşırlar. Yaxşı olardı ki, belələri bütün imkanlarını kafirlərə və Sünnə əhlinə qarşı çıxan bidətçilərə sərf edib, öz aralarında mehriban və nəzakətli olsunlar və bir-biriləri ilə mülayim və yumşaq davransınlar.

---

[1] əl-Ənam, 153.

[2] Mədaricus-Salikin (3/179).

[3] əl-İntiqa (35-ci səh).

Belələrinə nəsihət etmək məqsədi ilə bu barədə bir neçə kəlmə yazmağı qərara aldım. İzzət və Cəlal sahibi olan Allahdan diləyim budur ki, yazdığım bu kəlmələr vasitəsilə O, insanlara fayda versin. Mən ancaq bacardığım qədər islah etmək istəyirəm. Mən ancaq Allahın sayəsində uğur qazanır, yalnız Ona təvəkkül edir və yalnız Ona üz tuturam. Bu kiçik nəsihətimi "Ey Peyğəmbərin ﷺ yolunu gedən müsəlmanlar bir-birinizlə mehriban davranın" adlandırdım.

Uca Allahdan hər kəsi müvəffəq edib doğru yola yönəltməsini, möminlərin arasını düzəldərək qəlblərini bir-birinə yaxınlaşdırmasını, onları salamatlıq yollarına yönəldərək zülümətlərdən nura çıxarmasını diləyirəm. Həqiqətən də O, duaları eşidib onlara cavab verəndir.

## Danışma və açıqlama neməti haqqında

Şəkk yoxdur ki, Uca Allahın insanlara bəxş etdiyi nemətləri saymaqla qurtarmaq mümkün deyil. Həmin nemətlərin ən böyüklərindən biri də insanın danışaraq öz istəyini anlada bildirməsidir. Məhz bu nemətin sayəsində insan doğru söz söyləyir, yaxşı işlərə dəvət edir, yaramaz işlərdən çəkindirir. Danışa bilməyən kəs bütün bunları edə bilməz və başqalarına öz fikirlərini yalnız işarə və ya əgər bacarırsa yazmaqla çatdıra bilər. Uca Allah buyurur: **"Allah eləcə də iki kişi barəsində məsəl çəkdi; onlardan**

**biri laldır, heç bir şeyə gücü çatmır və öz ağasına bir yükdür. Onu hara yollasa, xeyirlə qayıtmaz. Məgər doğru yolda olub ədalətli işlər görməyi əmr edən bir kimsə ilə belə bir adam eyni ola bilərmi?"**[1] Ayənin təfsirində deyilir ki; Uca Allah burada özü ilə bütləri misal çəkir. Bəziləri isə burada möminlə kafirə misal çəkildiyini bildirmişlər. Qurtubi[2] demişdir: "Bu İbn Abbasdan nəql olunmuşdur və ümumi olduğu üçün daha məqsədəuyğun hesab edilir." Aydın məsələdir ki, lal olan bir kölə başqalarına fayda verə bilmədiyi və sahibinin tapşırıqlarını yerinə yetirı bilmədiyi üçün naqis hesab olunur."

Uca Allah buyurur: **"Göyün və yerin Rəbbinə and olsun ki, bu *vəd* sizin danışmağa qüdrətiniz olduğu kimi həqiqətdir."**[3]

Bu ayədə Uca Allah özünə and içir ki, insanların öldükdən sonra diriləərək əməllərinin müqabilində mükafat və ya cəza almaları onların danışmaları kimi bir həqiqətdir. Bu ayədə danışmaq nemətinə işarə vardır.

Həmçinin Uca Allah buyurur: **"İnsanı yaratdı, ona danışmağı öyrətdi."**[4] Həsən əl-Bəsri bu ayədəki "bəyan" kəlməsinin danışmaq mənasını verdiyini bildirmişdir. Bu

---

[1] ən-Nəhl, 76.

[2] Qurtubinin təfsiri (9/149)

[3] əz-Zariyat, 23.

[4] ər-Rəhman, 3-4.

ayədə də danışmaq nemətinə işarə vardır. O nemət ki, insan onun sayəsində öz istəklərini başqalarına başa salır.

Digər bir ayədə Uca Allah buyurur: **"Məgər ona iki gözü Biz verməmişikmi? Bir dillə iki dodaq** ***verməmişikmi*****?"**[1] İbn Kəsir öz təfsirində demişdir: "Yəni insana iki göz vermədikmi onun vasitəsilə görsün, həmçinin dil vermədikmi onun vasitəsilə ünsiyyət qurub danışsın, eləcə də iki dodaq vermədikmi asan danışa bilsin, yemək yeyə bilsin və üzü gözəl olsun?!"

Məlumdur ki, bu nemət yalnız xeyir üçün istifadə olunduqda həqiqi nemət hesab olunur. Yox əgər sahibi bu neməti arzuolunmaz məqsədlər üçün istifadə edərsə o zaman o, sahibi üçün bir yükə çevrilir və bu nemətdən məhrum olanın halı ondan daha yaxşı sayılır.

## Yalnız xeyir söz söyləməklə dili qorumaq barəsində

Uca Allah buyurur: **"Ey iman gətirənlər! Allahdan qorxun və doğru söz danışın ki, O, sizin əməllərinizi islah etsin və günahlarınızı bağışlasın. Kim Allaha və Onun Elçisinə itaət etsə, böyük bir uğur qazanar."**[2]

Həmçinin buyurur: **"Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır.**

---

[1] əl-Bələd, 8-9.

[2] əl-Əhzab, 70-71.

**Bir-birinizi güdməyin, bir-birinizin qeybətini qırmayın. Sizdən biriniz ölmüş qardaşının ətini yemək istəyərmi? Siz ki, bundan iyrənirsiniz. Allahdan qorxun! Həqiqətən, Allah tövbələri qəbul edəndir, Rəhmlidir."**[1]

Həmçinin buyurur: **"İnsanı Biz yaratdıq və nəfsinin ona nəyi vəsvəsə etdiyini də bilirik. Biz ona şah damarından da yaxınıq. Sağında və solunda iki *mələk* oturub *onun əməllərini qeydə alır.* Dediyi elə bir söz yoxdur ki, *onu yazmaq üçün* yanında hazır durmuş gözətçi olmasın."**[2]

Həmçinin buyurur: **"Mömin kişiləri və mömin qadınları etmədikləri bir işdən ötrü günahlandıranlar, sözsüz ki, öz üzərilərinə böhtanla bərabər açıq-aydın ağır bir yük götürmüşlər."**[3]

Muslimin "Səhih" əsərində[4] Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Bilirsinizmi qeybət nə olan şeydir?" Dedilər ki; Allah və rəsulu daha yaxşı biləndir. Dedi: "Qardaşınızı onun xoşuna gəlmədiyi bir şeylə xatırlamaqdır." Soruşurlar ki; Əgər dediyimiz şey qardaşımızda varsa onda necə? Peyğəmbər ﷺ də cavabında buyurur ki: "Əgər söylədiyin şey onda varsa qeybət etmiş olursan, yox əgər onda olmazsa o zaman böhtan atmış olursan."

---

[1] əl-Hucurat, 12.

[2] Qaf, 16-18.

[3] əl-Əhzab, 58.

[4] Muslimin "Səhih" əsəri (2589)

Uca Allah buyurur: **"Haqqında məlumatın olmadığı bir işin dalınca getmə. Çünki qulaq, göz və ürək – bunların hamısı *sahibinin əməlləri* barəsində sorğu-sual olunacaqdır."**[1]

Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Həqiqətən də Allah etdiyiniz üç əməldən razı qalır, üç əməldən isə xoşlanmır. O, sizin yalnız Ona ibadət edərək heç bir şeyi ona şərik qoşmamanızdan, habelə hamılıqla Allahın ipindən möhkəm yapışmanızdan və parçalanmamanızdan razı qalır. Dedi-qodu etmənizdən, çoxlu sual vermənizdən, bir də mal-dövlətinizi hədər yerə xərcləmənizdən isə əsla xoşlanmır." Hədisi Muslim[2] rəvayət etmişdir. Sonuncu üç xoşagəlməz əməl Buxari[3] və Muslimin Muğiradan ﷺ rəvayət etdikləri hədisdə də qeyd olunur.

Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Adəm oğlunun zinadan olan nəsibi yazılmışdır. O, da şübhəsiz ki, öz payını alacaqdır. Gözlərin zinası baxmaq, qulaqların zinası dinləmək, dilin zinası danışmaq, əlin zinası toxunmaq, ayağın zinası addımlamaqdır. Qəlb meyl edib təmənna edir, övrət yeri isə ya bunu təsdiqləyir, ya da yalanlayır." Hədisi Buxari[4] və Muslim[5] rəvayət etmişlər.

---

[1] əl-İsra, 36.

[2] Muslimin "Səhih" əsəri (1715)

[3] Buxarinin "Səhih" əsəri (2408)

[4] Buxari (6612)

[5] Muslim (2657)

Həmçinin Buxarinin “Səhih” əsərində[1] Abdullah ibn Amrdan ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Müsəlman öz əli və dili ilə digər müsəlmanlara zərər verməyən kəsə deyilir.” Muslimin “Səhih” əsərində[2] həmin hədisin ləfzi aşağıdakı kimidir: “Bir dəfə bir kişi peyğəmbərdən ﷺ soruşur ki; hansı müsəlman daha xeyirlidir? Peyğəmbər ﷺ cavabında buyurur ki, “Öz əli və dili ilə digər müsəlmanlara zərər verməyən kəsdir.” Buxaridəki hədisin oxşarını Muslim[3] Cabirdən də rəvayət etmişdir.

Hafiz İbn Həcər bu hədisin şərhində demişdir: “Hədisin dillə bağlı hissəsi ümumidir, əllə bağlı hissəsi isə belə deyildir. Çünki insan dili vasitəsilə həm keçmişdə baş vermiş, həm indiki zamanda baş verən, həm də gələcək zamanda baş verəcək hadisələr barəsində danışa bilir. Əl isə belə deyil. Bəli ola bilsin ki, əl yazmaqla dilə həmin şeylərdə şərik olsun. Onun bu məsələdə törətdiyi fəsad çox böyükdür.”

Bu xüsusda bir şair demişdir:

Yazarkən bir daha əmin oldum ki,
Əllərim məhv olsa da, yazdıqları qalacaq.
Yaxşı bir şey yazmışsa mükafatın alacaq,
Pis bir şey yazarsa haqq-hesab olunacaq.

Buxarinin “Səhih” əsərində[4] Səhl ibn Saddan ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: “Kim mənə iki

---

[1] Buxarinin “Səhih” əsəri (10)
[2] Muslimin “Səhih” əsəri (64)
[3] Muslimin “Səhih” əsəri (65)
[4] Buxari (6474)

çənəsinin arasındakı ilə iki budunun arasındakını zəmanət verərsə, mən ona Cənnəti zəmanət verərəm." Hədisdə dil və övrət yeri qəsd olunur.

Buxari və Muslimin "Səhih" əsərlərində[1] Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim Allaha və axirət gününə iman gətirmişsə ya xeyir söz söyləsin, ya da sussun."

İmam Nəvəvi "Qırx hədis" kitabının şərhində bu hədisi şərh edərkən demişdir: "Şafii demişdir: "Yəni insan bir söz söyləmək istədikdə gərək öncə azca düşünsün. Əgər görsə ki, danışdığının ona heç bir ziyanı yoxdur danışsın. Yox əgər görsə ki, danışdığında zərər var, və ya buna şübhə etsə o zaman sussun." Bəziləri demişlər ki; "Əgər yazan mələklərləri kağızla təmin etmək sizə həvalə olunsaydı çox danışmazdınız."

İmam Əbu Hatim ibn Hibban əl-Busti "Ravdatul-uqalə va nuzhatul-fudalə" əsərində[2] demişdir: "Ağıllı insan gərək bacardığı qədər sussun və yalnız zərurət olduqda danışsın. İnsanların çoxu danışdıqlarına görə sonradan peşman olurlar. Susmağına görə isə azacıq bir qism peşman olmur. İnsanların ən bədbəxti və ən böyük müsibətə düçar olanı düşünmədən çox danışan dilə, bir də qapalı qəlbə sahib olanıdır."

---

[1] Buxari (6475) , Muslim (74)

[2] 45-ci səhifə.

Başqa bir yerdə isə[1] o, demişdir: "Aqil olan kəs gərək qulaqlarını ağzına tərcih etsin və bilsin ki ona iki qulaq və yalnız bir ağız ondan ötrü verilmişdir ki, çox eşidib az danışsın. Çünki insan bəzən danışdıqdan sonra peşman olur. Danışmayan kəs isə əsla peşman olmur. İnsan danışmadığı bir şeyə cavab verməyə danışdığından daha çox qadirdir. Belə ki, sözü danışmadığın müddətdə o sənin qulundur, danışdıqdan sonra isə sən onun quluna çevrilirsən."

Başqa bir yerdə yenə demişdir: "Ağıllı olan kəsin dili qəlbinin arxasında olur, danışmaq istədikdə qəlbinə müraciət edir. Qəlbi razılıq verərsə danışar, əks halda susar. Cahil olan kəsin isə qəlbi dilinin ucunda olur. Beləsi ağzına nə gəldi danışar. Bir də məlumunuz olsun ki, dilini qoruya biməyən dinini dərk edə bilməz."

Buxari və Muslimin "Səhih" əsərlərində[2] Əbu Hureyradan ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Ola bilsin ki, insan mahiyyətinə diqqət yetirmədən bir söz söyləsin və həmin söz onu məşriqlə məğrib arasındakı məsafə qədər Cəhənnəm oduna düşürsün."

Tirmizinin[3] Peyğəmbərin ﷺ Muaza ؓ etdiyi nəsihətlə bağlı Həsən Səhih olaraq rəvayət etdiyi hədisdə Muaz ondan soruşur ki; Ey Allahın Peyğəmbəri! Məgər biz danışdıqlarımıza görə də məsuliyyət daşıyırıq? Peyğəmbər ﷺ

---

[1] 47-ci səhifə.

[2] Buxari (6477), Muslim (2988).

[3] Tirmizi (2616).

cavabında deyir ki: "Məgər insanları Cəhənnəm oduna üzləri və ya burunları üstə atan onların dillərinin məhsulu deyilmi?"

Hafiz İbn Rəcəb "Cami əl-ulumi val-hikəm" əsərində[1] hədisi şərh edərək demişdir: "Burada dillərinin məhsulu deyildikdə, haram olaraq söylənilmiş sözlərin cəzası nəzərdə tutulur. Belə ki, insan öz dili və əməli vasitəsilə savab və günahlar əkmiş olur. Qiyamət günü isə əkdiyi məhsulu biçəcəkdir. Hər kim xeyir söz və ya əməl əkmiş olarsa onun biçdiyi şey baş ucalığı olar. Eyni zamanda hər kim pis söz və ya əməl əkmiş olarsa həmin gün onun biçdiyi şey peşmançılıq olar."

Həmçinin o, başqa bir yerdə[2] demişdir: "Bu ona dəlalət edir ki, az danışmaq və danışığa diqqət yetirmək hər bir xeyirin əsasını təşkil edir. Hərgah dilinə hakim olan kəs öz aqibətini də müəyyənləşdirib ona hakim olar."

Həmçinin Yunus ibn Ubeydin belə dediyini[3] nəql etmişdir: "Ağıllı dilə malik elə bir kəs görməmişəm ki, bu onun digər əməllərində özünü büruzə verməsin." Yəhya ibn Əbu Kəsir demişdir: "İnsanın danışığı düzgün olduqda bunu onun digər əməllərində də aşkar görürsən, həmçinin insanın danışığı pis olduqda bunu da onun digər əməllərində görmüş olursan."

---

[1] Cami əl-ulumi val-hikəm (2/147).
[2] Cami əl-ulumi val-hikəm (2/146).
[3] Cami əl-ulumi val-hikəm (2/149).

Muslimin "Səhih" əsərində[1] Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Heç bilirsinizmi müflis kimə deyilir?" Dedilər: Müflis aramızda dirhəmi və mal-dövləti olmayan kəsə deyilir. Peyğəmbər ﷺ buyurdu: "Ümmətimin həqiqi müflisi Qiyamət günü namaz, oruc və zəkatla gələcək, lakin birini söymüş, o birinə böhtan atmış, digərinin haqqını yemiş, kiminsə qanını tökmüş, bir başqasını isə vurmuş olduğu üçün savabları həmin şəxslərə verilər. Haqq-hesabı sona çatmamışdan öncə savabları bitib tükəndikdə isə həmin şəxslərin günahlarından götürülüb ona yazılar, sonra da o, Cəhənnəmə vasil olar."

Muslimin "Səhih" əsərində[2] Əbu Hureyradan ﷺ rəvayət olunan uzun bir hədisin sonunda Peyğəmbər ﷺ demişdir: "Kişinin şər əməl sahibi olması üçün öz müsəlman qardaşını təhqir etməsi kifayət edər. Müsəlmanın qanı da, malı da, namusu da digər müsəlmana haramdır."

Buxari[3] və Muslimin "Səhih" əsərlərində İbn Abbasdan ﷺ rəvayət olunur ki, Peyğəmbər ﷺ qurban kəsilən gün insanlara xütbə verərək dedi: "Ey insanlar! Bu gün hansı gündür?" İnsanlar: "Haram bir gündür" - deyə cavab verdilər. Peyğəmbər ﷺ yenə soruşdu: "Bura hansı yerdir?" İnsanlar: "Toxunulmaz bir yerdir" - deyə cavab verdilər. Peyğəm-

---

[1] Muslim, (2581).

[2] Muslim, (2564).

[3] Buxari (1739).

bər ﷺ bir daha soruşdu: "Bu hansı aydır?" Onlar: "Haram aydır" - deyə cavab verdilər. Peyğəmbər ﷺ dedi: "Şübhəsiz ki, qanınız da, malınız da, namusunuz da sizə bu şəhərinizdə və bu ayınızda bu gününüzün haram olduğu kimi haramdır." O, bu sözləri bir neçə dəfə təkrarladıqdan sonra başını qaldırıb dedi: "Allahım çatdırdımmı? Allahım çatdırdımmı?" İbn Abbas رضي الله عنه dedi: "Canım əlində olana and olsun ki, bu onun öz ümmətinə verdiyi vəsiyyətidir. (Odur ki,) bunu eşidənlər başqalarına da bunu çatdırsın!" "Məndən sonra biri-birinin boynunu vuran kafirlərə çevrilməyin."

Muslimin "Səhih" əsərində[1] Əbu Hureyradan رضي الله عنه rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim (insanları) doğru yola dəvət edərsə, ona bu yola tabe olanların əldə etdikləri əcrin mislində əcr yazılar və bu onların əcrlərindən heç bir şey əksiltməz. Həmçinin kim (insanları) azğınlığa səsləyərsə ona bu azğınlığa tabe olanların əldə etdikləri günahın mislində günah yazılar və bu onların günahlarından heç bir şey əksiltməz."

Hafiz əl-Munziri "Tərğib və tərhib" əsərində[2] : "Adəm oğlu öldükdə üç əməldən başqa onun bütün əməllərinə xitam verilər..." – hədisinə açıqlama verərək demişdir: "Faydalı elm yazana bu əməlin savabı yazılar və bundan əlavə onun xətti qaldığı və bu elmə əməl olunduğu müddətcə, onu oxuyanın, köçürənin və ona əməl edənlərin savabı

[1] Muslim, (2674).
[2] Tərğib və tərhib, (1/65).

qədər də savab yazılar. Eləcə də faydasız elm yazana bu əməlin günahı yazılar və bundan əlavə onun xətti qaldığı və bu elmə əməl olunduğu müddətcə, onu oxuyanın, köçürənin və ona əməl edənlərin günahı qədər də günah yazılar. Yuxarıdakı: "Kim yaxşı və ya pis bir əməlin əsasını qoyarsa..." hədisi buna dəlalət edir. Daha doğrusunu bilən Allahdır."

Buxarinin "Səhih" əsərində[1] Əbu Hureyradan ﷺ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Allah demişdir: "Kim mənim övliyama düşmənçilik edərsə ona qarşı müharibə elan edərəm."

## Zənn və casusluq etmək barədə

Uca Allah buyurur: **"Ey iman gətirənlər! Zənnə çox qapılmayın. Çünki zənn edilənlərin bir qismi günahdır. Bir-birinizi güdməyin..."[2]** Bu ayə çoxlu zənn etməkdən çəkinməyi əmr edib onun bir qisminin günah olduğunu, habelə casusluq etməyin qadağan olduğunu açıqlayır. Casusluq deyildikdə insanların eyiblərini arayıb axtarmaq nəzərdə tutulur ki, bu da insanlar barəsində pis zənn etməyin nəticəsidir.

Peyğəmbər ﷺ demişdir: "Zənn etməkdən çəkinin, çünki zənn ən yalan söhbətdir. Bir-birinizin eybini ara-

[1] Buxari, (6502).

[2] əl-Hucurat, 12.

mayın, casusluq etməyin, bir-birinizə həsəd aparmayın, bi-birinizə nifrət etməyin, bir-birinizə arxa çevirməyin! Ey Allahın qulları qardaş olun.” Hədisi Buxari[1] və Muslim[2] rəvayət etmişlər.

Möminlərin əmiri Ömər ibn əl-Xattabdan ﵁ rəvayət olunan hədisdə o, demişdir: “Mömin qardaşının söylədiyi söz barəsində xeyirə ehtimal etməklə yalnız yaxşı zənn et.” Bunu İbn Kəsir Hucurat surəsindəki ayənin təfsirində qeyd etmişdir.

“Təhzib ət-təhzib” əsərində Bəkr ibn Abdullah əl-Muzəninin tərcümeyi halında onun belə dediyi rəvayət olunur: “O sözlər ki, doğru çıxanda sənə savab qazandırmır, lakin yalan çıxdıqda günah qazandırır onlardan çəkin. Bu da ki, qardaşın haqqında pis zənn etməkdir.”

Əbu Nueymin “əl-Hulyə” əsərində Əbu Qiləbə Abdullah ibn Zeyd əl-Cərminin belə dediyi rəvayət olunur: “Qardaşın haqqında sənə xoşagəlməz bir xəbər gəldikdə ona mümkün qədər özlüyündə üzür gətir. Üzür gətirə bilmədikdə isə öz-özünə de ki; yəqin ki, qardaşımın mənə bəlli olmayan bir üzürü var.”

Sufyan ibn Hüseyn demişdir: “Bir dəfə İyas ibn Müaviyənin yanında bir nəfər haqqında xoşagəlməz söz söylədim. O üzümə baxıb dedi: “Sən rumlulara qarşı

---

[1] Buxari (6064).

[2] Muslim (2563).

döyüşmüsənmi?" Mən: "Xeyir" – deyə cavab verdim. O yenə soruşdu: "Bəs sindlilərə, hindlərə və ya türklərə qarşı necə?" Mən yenə: "Xeyir" – deyə cavab verdim. O dedi: "Rumlular, sindlilər, hindlər və türklər səndən salamat oldu, qardaşların isə yox. Bundan sonra bir daha buna bənzər iş görmədim."[1]

Bir baxın öz zəkası ilə məşhur olan İyas ibn Müaviyənin bu cavabı necə də gözəldir. Bu cavab onun həqiqətən də çox zəkalı olmasına dəlalət edir.

Əbu Hatim ibn Hibban əl-Busti "Raudatul-uqalə" əsərində[2] demişdir: "Ağılı olan kəs gərək insanların ayıblarını aramaqdan çəkinərək, öz ayıblarını islah etməklə məşğul olsun. Kim başqalarının ayıblarını deyil, öz ayıblarını islah etməklə məşğul olarsa bədənini rahat edər və qəlbini yormaz. Hər dəfə özünün bir ayıbı yada düşdükdə qardaşının ayıbını yaddan çıxarar. Öz ayıblarını deyil, başqalarının ayıblarını arayıb araşdıranların isə qəlbi kor olar, bədəni yorular və öz ayıblarından yaxa qurtara bilməz."

Həmçinin[3] demişdir: "Casusluq nifaqın bir şöbəsidir. Yaxşı zənn etmək isə imanın bir şöbəsidir. Odur ki, aqil insan qardaşları barəsində yalnız yaxşı zənn edər və öz səhvləri haqqında düşünər və kədərlənər. Cahil isə

---

[1] İbn Kəsirin əl-Bidayə van-nihayə əsəri (13/121).
[2] Raudatul-uqalə əsəri, 131-ci səh.
[3] Raudatul-uqalə əsəri, 133-ci səh.

qardaşları barəsində pis zənn edər və özündəki nöqsanlar barəsində əsla düşünməz və kədər etməz."

## Mülayimlik, yumşaqlıq barədə

Uca Allah Özünün peyğəmbəri Muhəmmədin ﷺ böyük bir əxlaq sahibi olduğunu vəsf edərək buyurur: **"Həqiqətən də, sən böyük əxlaq sahibisən!"**[1] Həmçinin onun mülayim və yumşaq təbiətli olduğunu vəsf edərək buyurur: **"Allahın mərhəməti sayəsində sən onlarla mülayim rəftar etdin. Əgər sən kobud və daş qəlbli olsaydın, onlar hökmən sənin ətrafından dağılışardılar."**[2] Başqa bir ayədə onun möminlərə qarşı qayğıkeş, şəfqətli və rəhmli olduğu bildirilir: **"Sizə özünüzdən elə bir Elçi gəldi ki, sizin əziyyətə düşməyiniz ona ağır gəlir. O sizə qarşı qayğıkeş, möminlərə şəfqətli, rəhmlidir."**[3]

Ənəs ibn Malikdən ؓ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ insanlara mülayim olmağı əmr edərək demişdir: "Asanlaşdırın, çətinləşdirməyin, müjdələyin, qaçırtmayın." Hədisi Buxari və Muslim rəvayət etmişdir.[4] Muslimin[5] Əbu Musa əl-Əşaridən ؓ rəvayət etdiyi hədisin

---

[1] əl-Qələm, 5.

[2] Ali İmran, 159.

[3] ət-Tövbə, 128.

[4] Buxari (69), Muslim (1734).

[5] Muslim (1732).

ləfzi isə belədir: "Müjdələyin, qaçırtmayın, asanlaşdırın, çətinləşdirməyin." Buxarinin "Səhih" əsərində Əbu Hureyradan ﵁ rəvayət olunan hədisdə bədəvi gəlib məscidə sidik ifraz etdiyi zaman Peyğəmbər ﷺ demişdir: "Ona dəyməyin! Sidiyinin üzərinə də bir qab (və ya bir çəllək) su tökün. Şübhəsiz ki, sizlər çətinləşdirən olaraq deyil, asanlaşdıran olaraq göndərilmisiniz."[1]

Yenə Buxarinin "Səhih" əsərində[2] Aişədən ﵂ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Ey Aişə! Şübhəsiz ki, Allah mülayimdir və hər bir işdə mülayimliyi sevir." Muslimin rəvayət etdiyi ləfz[3] isə belədir: "Ey Aişə! Şübhəsiz ki, Allah mülayimdir və mülayimliyi sevir və mülayimliyin müqabilində verdiyini şiddət və ya başqa şeylərin müqabilində vermir." Muslimin "Səhih"[4] əsərində Aişədən ﵂ rəvayət olunan bir başqa hədisdə də Peyğəmbər ﷺ demişdir: "Həqiqətən də, hansı bir işdə mülayimlik olarsa, o həmin işi ancaq bəzəyər və hansı bir işdən mülayimlik götürülərsə o işə ayıb gətirər." Yenə Muslimin "Səhih" əsərində Cərir ibn Abdullahdan ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Mülayimlikdən məhrum olan xeyirdən də məhrum olar."

---

[1] Buxari (220).

[2] Buxari (6927).

[3] Mulim (2594).

[4] Muslim, (2594).

Uca Allah iki hörmətli peyğəmbər Musa ilə Haruna Fironu mülayim və nəzakətlə dəvət etmələrini buyurmuşdur. O, buyurur: **“Fironun yanına gedin. Çünki o, həddini aşmışdır. Onunla yumşaq danışın. Bəlkə, öyüd-nəsihət qəbul etsin, yaxud qorxsun!”**[1]

Həmçinin Uca Allah səhabələri də vəsf edərək onların öz aralarında mülayim olduqlarını buyurur. Uca Allah buyurur: **“Muhəmməd Allahın Elçisidir. Onunla birlikdə olanlar kafirlərə qarşı sərt, öz aralarında isə mərhəmətlidirlər.”**[2]

---

[1] Taha, 43-44.

[2] əl-Fəth, 29.

## Alim xəta etdiyi zaman Əhli Sünnə val-camaanın mövqeyi

## Bu zaman həmin alim üzürlü hesab olunmalı, bidətçi hesab olunaraq tərk edilməməlidir.

Rəsulullahdan ﷺ başqa heç kəs məsum deyildir. Odur ki, səhvsiz alim yoxdur. Alimlərdən kimsə səhv etdikdə onun səhvi götürülmür. Lakin həmin xətanı əsas tutaraq həmin alimi qaralamaq və insanları ondan çəkindirmək olmaz. Əksinə onun az miqdarda buraxdığı səhvlər çoxlu yaxşı işləri ilə ört-basdır olunmalıdır. Bu həyatdan köçüb getmiş bu cür alimlərin elmlərindən faydalanmaqla yanaşı buraxdığı səhvə tabe olmaqdan da uzaq durmaq gərəkdir. Həmçinin bu cür alimlərə dua edib onlar üçün rəhmət oxumaq lazımdır. Həyatda olan alim və ya elm tələbələrinə gəlincə onların xətası yumşaq bir formada, mehribancasına və sevgi ilə vurğulanmalıdır ki, həmin şəxs də öz xətasını tərk edib doğru yola qayıtsın.

Bu həyatdan köçüb getmiş alimlərdən elələri vardır ki, onların bəzi əqidə məsələlərinə yanaşmalarında müəyyən problemlər olmuşdur. Halbuki alimlərin və elm tələbələrinin həmin alimlərin elmlərinə ehtiyacları vardır. Çünki onların qələmə aldıqları əsərlər elm tələbələri üçün əvəzolunmaz əsərlər hesab olunur. Belə alimlərə Beyhəqini, Nəvəvini və İbn Həcər əl-Əsqəlanini misal göstərmək olar.

İmam Zəhəbi "Siyar əlam ən-nubəla" əsərində[1] İmam Əhməd ibn Hüseyn Əbu Bəkr əl-Beyhəqi barəsində demişdir: "O, Hafiz, çox böyük alim, sabit bir fəqih və Şeyxul-İslamdır. Onun elminə bərəkət verilmişdir və o, çox faydalı əsərlər yazmışdır. O, öz vətənini tərk edərək ömrünü elm toplayıb əsərlər yazmağa sərf etmişdir. On cilddən ibarət elə bir böyük "Sünən" əsəri yazmışdır ki, onun misli, tayı-bərabəri yoxdur." Bunu deyərək o, bir sıra başqa əsərləri də qeyd etmişdir. Qeyd olunduğu kimi onun "Sünən əl-kubra" əsəri on cilddə nəşr olunmuşdur. Hafiz Abdulğafir ibn İsmailin onun haqqında söylədiyini imam əz-Zəhəbi nəql edərək demişdir: "O, min cildə yaxın əsərlər yazmışdır. Həmin əsərlərin bənzərini ondan əvvəl heç kim qələmə almamışdır. Onun əsərləri əsasən hədis elmi, fiqh, hədisin illətləri və hədisləri cəm etmək barədədir." Zəhəbi həmçinin demişdir: "Beyhəqinin əsərləri çox təqdirəlayiq və faydalar ilə zəngindir. Nadir hallarda Əbu Bəkr əl-Beyhəqiyə tay olan alim tapmaq olar. Odur ki, elm əhli beləl期 — 

İmam Yəhya ibn Şəraf ən-Nəvəviyə gəlincə İmam əz-Zəhəbi "Təzkiratul-huffaz" əsərində[2] onun barəsində demişdir: "O, imam, bənzəri olmayan hafiz, nümunə,

---

[1] Siyar əlam ən-nubəla, 18/163.

[2] Təzkiratul-huffaz əsəri, 4/259.

Şeyxul-İslam, övliyaların şüarı və çox faydalı əsərlərin müəllifidir. O, nəfsi ilə daim cihad aparan, təqvanın incəliklərinə varan, Allahın ona nəzarət etməsinə davamlı diqqət göstərən, nəfsinin bütün xoşagəlməz xislətlərdən təmizlənməsinə səy göstərən birisi idi. Bununla bərabər o, hədis və rical elmində hafiz, hədislərin səhihini zəifindən ayırmaqda möhtəşəm bir alim, habelə məzhəbin bilgilərində rəhbər idi."

İbn Kəsir "əl-Bidayə van-nihayə" əsərində[1] demişdir: "Sonra o, vaxtını müxtəlif əsərlər yazmağa sərf etmiş və bir çox faydalı məlumatlar toplamışdır. Həmin əsərlərdən bəzilərini tamamlamış, digərlərini isə tamamlamaq ona müyəssər olmamışdır. Onun tamamladığı əsərlərdən bəziləri bunlardır: "Muslimin Səhih əsərinin şərhi", "ər-Rauda", "əl-Minhəc", "ər-Riyad əs-Salihin, "əl-Əzkər", "ət-Tibyan", "Təhrir ət-tənbih va tashihuhu", "Təhzib əl-əsmə val-luğat", "Tabəqat əl-fuqahə" və bir çox başqa əsərlərdir. Onun tamamlaya bilmədiyi əsərlərdən bəziləri isə aşağıdakılardır, halbuki həmin əsərləri tamamlamaq ona müyəssər olsaydı, həmin əsərlərin tayı-bərabəri olmazdı: "Şərhul-muhəzzəb" əsəri (həmin əsəri o, əl-Məcmu adlandırmışdır), o, bu əsəri Riba fəslinədək tamamlaya bilmişdir. Həmin kitab çox əsrarəngiz bədii üslubda qələmə alınmışdır və özündə məzhəb və müqayisəli fiqhi,

[1] əl-Bidayə van-nihayə əsəri, 17/540.

hədis elmini, qəribə hədisləri, ərəb dilini və bir sıra başqa mühüm məsələləri ehtiva edir. Fiqh kitabları arasında ondan yaxşısını tanımıram. Bununla belə bir çox məsələlərin ona əlavə edilməsi lazımdır."

İmam Nəvəvi çoxsaylı əsərlər qələmə almasına baxmayaraq uzunömürlü olmamışdır. O, cəmi qırx beş il həyat sürmüşdür. Hicrətin 631-ci ilində dünyaya gəlmiş, 676-cı ildə isə vəfat etmişdir.

Hafiz Əhməd ibn Əli İbn Həcər əl-Əsqəlani isə çoxlu əsərlər yazmış məşhur bir imamdır. Həmin əsərlər arasında ən mühüm olanı Buxarinin "Səhih" əsərinin şərhi olan "Fəthul-Bari" əsəridir. Həmin əsər alimlər üçün əsas mənbələrdən hesab olunur. Onun başqa əsərlərindən "əl-İsabə fi təmyiz əs-sahəbə", "Təhzibut-təhzib", "Təqrib ət-təhzib", "Lisan əl-mizan", "Tacil əl-mənfəa", "Buluğ əl-məram" və bir sıra başqa əsərləri göstərmək olar.

Müasir alimlərdən isə Möhtəşəm alim, məşhur mühəddis Muhəmməd Nasirəddin əl-Albanini göstərmək olar. Dövrümüzdə hədis elmində onun bənzərini tanımıram. Lakin buna baxmayaraq bir çox alimlərin xəta hesab etdikləri bəzi səhvlərə yol vermişdir. Həmin məsələlərdən hicab məsələsini göstərmək olar. Belə ki, o, qadının üzünü örtməsinin vacib deyil müstəhəb olduğunu bildirmişdir. Hətta onun söylədikləri haqq olsa belə bu, haqqın gizlədilməsi lazım olan növlərindən hesab olunur. Çünki bəzi

qadınlar buna bənzər fitvalardan sui-istifadə edərək açıq-saçıq gəzməyə başlaya bilər. Həmçinin "Peyğəmbərin ﷺ namazı" əsərində o, demişdir: "Rukudan qalxdıqdan sonra əlləri sinənin üzərinə qoymaq bidət və zəlalətdir." Halbuki bu ixtilaflı məsələdir. Həmçinin "Silsilətul-əhadisud-daifə" əsərində[1] o, demişdir ki; "bir ovucdan artıq olan saqqalı qısaltmamaq izafi bidətlərdən hesab olunur." Həmçinin onun qadınların həlqəvari qızıl taxmalarının haram olmasını bildirməsi də bu qəbildəndir. Bütün bu qeyd etdiyim məsələlərdə onun dediklərini inkar etməyimə rəğmən mən onun əsərlərindən faydalanıram və başqalarının da həmin əsərlərdən faydalanmasının zəruri olduğunu vurğulayıram. Bu barədə İmam Malikin (Allah ona rəhmət eləsin) gözəl bir sözünü qeyd etmək yerinə düşər. O, Peyğəmbərin ﷺ məzarına işarə edərək demişdir: "Bu qəbrin sahibindən savayı hər bir kəsin bəzi sözləri götürülüb, bəzi sözləri tərk oluna bilər."

Hər hansı bir alim xəta etdiyi zaman onun xətasının yaxşı işləri ilə ört-basdır edilməsi barədə alimlərin bəzi sözlərini qeyd edək:

Səid ibn əl-Museyyib (hicrətin 93-cü ilində vəfat etmişdir) demişdir: "Elə bir alim, rəhbər və ya fəzilət sahibi yoxdur ki, onun eybi olmasın. Lakin kimin fəziləti nöqsanlarından çox olarsa, fəziləti nöqsanını ört-basdır

---

[1] Silsilətul-əhadisud-daifə (2355).

edər. Eyni zamanda kimin nöqsanı fəzilətindən çox olarsa nöqsanları fəzilətini alıb aparar. Bəziləri demişlər: Alim səhvsiz olmaz. Xətası az, doğru söylədikləri isə çox olan şəxs alim sayılır. Səhvləri çox, doğru danışdıqları az olan kəs isə cahildir." İbn Abdulbərin "Camiu bəyan əl-ilmi va fadlihi" əsəri (2/48).

Abdullah ibn Mubarak (hicrətin 181-ci ilində vəfat etmişdir) demişdir: "İnsanın yaxşı işləri pis işlərindən çox olduqda pis işləri deyilməz. Həmçinin pis işləri yaxşı işlərini üstələdikdə yaxşı işləri qeyd olunmaz." Siyar əlam ən-nubəla" əsəri (8/352).

İmam Əhməd (hicrətin 241-cı ilində vəfat etmişdir) demişdir: "Bizə bəzi məsələlərdə müxalif olmasına baxmayaraq bildirmək istəyirəm ki, Xorasanın körpüsündən İshaq (ibn Rahuya) kimisi keçməmişdir. İnsanların bir-birilərinə müxalif olmaları təbiidir."[1]

Əbu Hatim İbn Hibban (hicrətin 354-cı ilində vəfat etmişdir) demişdir: "Abdulməlik (ibn əbi Suleyman) Kufə əhlinin ən xeyirlilərindən və hafizlərindən idi. Adətən hafiz olan və hifzindən rəvayət edənlərin təbii ki səhvləri də olur. Ona görə də hər hansı bir adilliyi və sabitliyi məlum olan bir şeyxin hədislərini onun buraxdığı səhvlərinə görə tərk etmək insafdan deyildir. Bu minvalla hərəkət etmiş olsaq gərək hifz əhlindən olan Zuhrinin, ibn Cureycin,

[1] Siyar əlam ən-Nubəla (11/371)

Sövrinin və Şöbənin hədislərini də tərk edək. Çünki onlar məsum deyildilər ki hafizələrindən danışdıqları bütün rəvayətlər dəqiq olsun. Odur ki, sabit və etibarlı olan ravinin rəvayətlərini qəbul etmək, səhv etdiyi bəlli olan rəvayətlərini isə tərk etmək daha məqsədəuyğundur. Əgər səhvlərinin sayı doğru rəvayətlərinin sayından çox olarsa bu başqa məsələ. O zaman həmin şəxs tərk olunmağa layiqdir."[1]

Şeyxul İslam ibn Teymiyyə (hicrətin 728-cı ilində vəfat etmişdir) demişdir: "Bilinməsi zəruri olan məsələlərdən biri də odur ki, dinin üsul və kəlam məsələlərində dini firqələrin nisbət olunduğu şəxslər müxtəlif dərəcələrdə olur. Onlardan eləsi var ki, dinin əsas məsələlərində sünnəyə müxalif olmuş, eləsi də var ki incə məsələlərdə sünnəyə müxalif olmuşdur. Alimlərdən hər kim özünün mənsub olduğu firqəyə nisbətən Sünnədən daha çox uzaq olan firqələrə rədd verdikdə, onun batili rədd edərək haqqı söylədiyi məsələlər təqdirəlayiq hesab olunmalıdır. Lakin ola bilsin ki, beləsi verdiyi rədd zamanı bəzi məsələlərdə haqqı deyil batil olan məsələləri söyləmiş olsun. Yəni misal üçün ola bilsin ki, böyük bir bidəti kiçik bir bidətlə, batili ondan daha zəif bir batillə rədd etmiş olsun. Əhlis-Sünnə val-camaaya nisbət olunan əksər kəlam əhlinin halı bu cürdür.

---

[1] əs-Siqat, (7/97-98)

Belələrinin söylədikləri bidətlər müsəlman camaatının arasına təfriqə salmadəğı müddətdə özləri deyil yol verdikləri xətalar tərk olunar. Bu cür hallarda Uca və Nöqsansız olan Allah möminlərin xətalarını bağışlayır.

Çünki ümmətin sələflərindən olan bir sıra mötəbər imamlar ictihad edərək bir sıra məsələlərdə buna bənzər xətalara yol vermiş və Quran və Sünnəyə müxalif mövqe sərgiləmişlər. Lakin öz fikirlərinə müvafiq olanları dəstəkləyib, müxalif olanlarla ədavət apararaq müsəlman camaatı arasında təfriqə salanlar, ictihadi məsələlərdə özünə müvafiq olanları dəstəkləyərək müxalifləri kafir və ya fasiq hesab edib, onlara qarşı vuruşmağı halal görənlər istisnadırlar. Çünki beləəri təfriqə və ixtilaf camaatlarıdır." Fətvalar məcmusu əsəri.[1]

Həmçinin (Şeyxul-İslam İbn Teymiyyə) demişdir:[2] "Sələflərdən, habelə xələflərdən bir çox alimlər vardır ki, onlar bidətlərə yol vermiş, lakin həmin əməllərin bidət olduğunu bilməmişlər. Onlar ya zəif hədislərin səhih olduğunu güman etdiklərindən və ya bəzi ayələri fərqli şəkildə anlamalarından, yaxud da məsələ ilə bağlı dəlillər onlara gəlib çatmadığına görə ictihad edərək belə bir qənaətə gəldiklərindən dolayı belə etmişlər. Ümumiyyətlə insan Rəbbindən bacardığı qədər qorxduqda Uca Allahın aşağıdakı

[1] Fətvalar məcmusu əsəri, 3/348-349.

[2] Fətvalar məcmusu əsəri, 19/191-192.

ayəsi ona da şamil olunur: **"Ey Rəbbimiz, unutsaq və ya xəta etsək bizi cəzalandırma!"**[1] Səhih bir hədisdə olduğu kimi Uca Allah da buyurur ki; "Duanızı qəbul etdim."

İmam Zəhəbi[2] demişdir: "Böyük alimlərin doğru söylədikləri çox, haqqı araşdırmaları bəlli, elmləri geniş, zəkaları zahir, əməlisaleh və təqvalı olmaları məlum olduqda onların buraxdıqları səhvlərə göz yumulur. Belələrinin yaxşı əməllərini unudaraq özlərini zəlalətdə saymaq, tərk etmək əsla yolverilməzdir. Doğrudur onların buraxdıqları səhvləri və ya bidətləri tərk edirik və onların həmin əməllərdən tövbə etmələrini ümid edirik."[3]

Həmçinin demişdir: "Əgər biz ittifaq olunmamış məsələlərdə ictihad edərək bağışlanılan bir səhvə yol verən hər bir alimin üzərinə qalxıb, onu bidətçi hesab edərək tərk etmiş olsaq nə İbn Nasr, nə İbn Məndə, nə də onlardan daha mötəbər olan alimlər bizim əməllərimizdən salamat olmazdı. Şübhəsiz ki, insanları hidayətə yönəldən Allahdır. Rəhimlilərin rəhimlisi də Odur. Bu səbəbdən kobudluqdan habelə nəfsimizin istəklərinə uymaqdan Allaha sığınırıq."[4]

Başqa bir yerdə demişdir: "Əgər düzgün iman gətirdiyi və haqqa tabe olmağa həris olduğu halda etdiyi icti-

---

[1] əl-Bəqərə, 256.

[2] Hicrətin 748-ci ilində vəfat etmişdir.

[3] Siyar əlam ən-nubəla əsəri, 5/271.

[4] əs-Siyər (14/39-40)

hadda səhvə yol verən hər kəsi bidətçi hesab edib tərk etmiş olsaq çox az sayda alim salamat qalar. Allah öz lütfü və səxavəti ilə onlara rəhmət eləsin."[1]

Həmçinin demişdir: "Bizlər Sünnəni və sünnə əhlini sevirik. Hər bir alimi sünnəyə tabe olması və malik olduğu müsbət keyfiyyətləri ilə birlikdə sevirik. Onun təvil edərək yola verdiyi bidətləri isə sevmirik. Müsbət cəhətlərin çoxluğu əsas götürülür."[2]

İbn əl-Qeyyim (hicrətin 751-ci ilində vəfat etmişdir) demişdir: "Hər kəs İslam alimlərinin fəzilətindən, məqamından, hüquq və dərəcələrindən agah olmalıdır. Lakin bununla belə bilmək lazımdır ki, onların malik olduğu elm və fəzilət, habelə insanları Allah və Rəsulunun yoluna dəvət etmələri onların söylədikləri hər bir sözü qəbul etməyimizin vacib olduğu anlamında deyildir. Belə ki, alimlərin verdikəri fitvalarda Rəsulullahın buyurduqlarına müxalif məsələlər olduqda, yəni onlar malik olduqları elm çərçivəsində haqqa müxalif olan bir fikir söylədikdə bizlər həmin alimlərin bütün söylədiklərini tərk edərək, onların şəninə əksiklik gətirməməli, habelə onların barəsində mənfi fikirlər söyləməməliyik. Belə halların baş verməsi təbiidir. Odur ki, bizlər orta mövqe tutaraq alimləri nə günahkar, nə də günahsız hesab etməməliyik." Sonra da demişdir: "Şəriət elmlərinə və dünyagörüşünə

---

[1] əs-Siyər (14/376)

[2] əs-Siyər (20/46)

malik hər kəsə bəllidir ki, İslamda əməyi olmuş hər bir hörmətli alim İslam əhlindən hesab olunur. Ola bilsin ki, alimlər səhvlərə və ya xətalara yol vermiş olsunlar. Lakin onların bu xətaları üzürlü hesab olunur, hətta onlar xəta etmələrinə rəğmən ictihad etdiklərinə görə əcr qazanmış olurlar. Həmin səhvlərdə onlara tabe olunmur. Bununla bərabər onları müsəlmanların qəlblərində yer almış məqamlarından aşağılamaq da olmaz."[1]

Həmçinin İbn Racəb əl-Hənbəli (hicrətin 795-ci ilində vəfat etmişdir) demişdir: "Allah öz kitabından savayı heç bir kitabın xətasız olmasına razı olmamışdır. İnsaflı olan kəs insanın az miqdarda buraxdığı səhvləri çoxlu yaxşı işləri ilə ört-basdır edir."[2]

## Dövrümüzdəki bəzi Əhli Sünnə alimlərinin cərh olunaraq tərk olunmaları fitnəsi və bundan yaxa qurtarmağın yolu

Dövrümüzdə Sünnə əhlindən bəziləri digərlərini cərh edərək insanları onlardan çəkindirməklə məşğul olmaqdadırlar. Bunun da nəticəsində müsəlmanlar arasında təfriqə, ixtilaf və bir-birlərini tərk etmə baş alıb get-

[1] İlam əl-muvaqqiin, (3/295)
[2] əl-Qəvaid, 3-cü səhifə.

məkdədir. Əslində gərək onlar bunun əksi olaraq bir-biriləri ilə mərhəmət və nəzakətlə davransınlar, əhli Sünnə val-camaaya qarşı olan bidət və zəlalət əhlinə qarşı eyni mövqedən çıxış edərək mübarizə aparsınlar. Bunun da əsasən iki səbəbi vardır:

**Birinci:** Bu günkü gündə bəzi müsəlmanların işi-gücü yalnız başqalarında səhv arayıb axtarmaqdır. Onlar kitabları oxuyub kasetləri dinləməklə səhvləri qeydə alıb insanları həmin şəxslərdən çəkindirməklə məşğuldurlar. İnsanların cərh və təhzir olunmalarına səbəb olduğunu hesab etdikləri xətalardan biri də həmin şəxsin bəzi cəmiyyətlərlə əməkdaşlıq etməsi, konfranslarda iştirak edərək mühazirələr verməsidir. Halbuki həmin cəmiyyətdə Şeyx Abduləziz ibn Bəz ilə Şeyx Muhəmməd ibn Useymin (Allah onlara rəhmət eləsin) şəxsən rabitə əlaqələri vasitəsilə mühazirələr vermişlər. Bu iki möhtəşəm alimin caiz görərək barəsində fətva verdikləri cəmiyyətə üzv olmağı indi bəziləri ayıb hesab edir. Belələri bilsin ki, insanın öz rəyini ittiham etməsi başqalarının rəyini ittiham etməsindən yaxşıdır. Ələlxüsus da əgər həmin məsələ barəsində böyük alimlər fitva vermişlərsə məsələyə ciddi yanaşmaq gərəkdir. Peyğəmbərin ﷺ bəzi səhabələri Hudeybiyyə sülhündəki olaylardan sonra belə deyirdilər: "Ey insanlar! Dində rəy bildirməkdən çəkinin."

Cərh olunanlar arasında elələri vardır ki, onun verdiyi dərslər, qələmə aldığı əsərlər və verdiyi xütbələr çox

faydalıdır. Sadəcə həmin şəxs hər hansı bir adam və ya camaat barəsində öz rəyini bildirmədiyinə görə insanları ondan çəkindiririrlər. Hətta cərh və təhzir o yerə gəlib çatıb ki, bəzi ərəb ölkələrində sünnəni yaymaqla və ona dəvət etməklə geniş faydalara və böyük fəaliyyətlərə malik olan görkəmli alimlər də cərh olunur və insanlar həmin şəxslərdən çəkindirilir. Şəkk yoxdur ki, insanları belələrindən çəkindirmək elm tələb edənlərin qarşısında ciddi əngəllər yaradır və onların həmin alimlərin elmindən və əxlaqından faydalanmalarına mane olur.

**İkinci:** Əhli sünnədən elələri də var ki, birinin xəta etdiyini gördükdə dərhal ona rəddiyyə yazır, sonra barəsində yazılan da rəddiyyəni cavabsız qoymayaraq onun qarşılığını verir. Beləliklə sonra onlar bir-birlərinin qələmə aldıqları əsərləri oxuyub, kasetlərə qulaq asmaqla səhvlər aramağa və onları toplamağa başlayırlar. Bəzən həmin səhvlərin bəziləri qeyri-ixtiyari dilucu səhvlər olur. Hansı ki, həmin səhvləri özü gördükdə, yaxud başqası bunu onun nəzərinə çatdırdıqda dərhal səhvini etiraf edir. Sonra onlar özlərinə qarşı olan tərəfi tənqid edən tərəfdarlar toplamağa çalışırlar. Sonra həmin tərəfdarlar tərəflərini saxladıqları şəxsləri tərifləməyə, qarşı tərəfi isə pisləməyə başlayırlar. Hətta onlar qarşı tərəfi pisləməyənləri buna məcbur belə edirlər. Onların bu çağırışlarına məhəl qoymayanları da eyni qaydada bidətçi hesab edərək insanları

ondan çəkindirirlər. Tərəflərdən birini dəstəkləyən həmin tərəfdarların etdikləri əməllər fitnə-fəsadın geniş vüsət almasının ən böyük səbəblərindəndir. Həmin tərəflərin, habelə onların tərəfdarlarının internet vasitəsilə qarşı tərəflə bağlı mənfi fikirlər yaymaları daha acınacaqlıdır. Sonra da müxtəlif ölkələrdəki Əhli Sünnə cavanları öz vaxtlarını həmin internet saytlarında yayılmış heç bir xeyri olmayan həmin fikirləri və dedi-qoduları oxuyub araşdırmağa sərf edirlər. Nəticədə bu yalnız zərər və təfriqəyə səbəb olur. Həmin tərəflərdən birini dəstəkləyənlər elan lövhəsinin önündə duraraq orada nəyin yayılmasının lazım olduğunda tərəddüd edənlərə bənzəyirlər. Habelə onlar idman yarışlarında yarışan qruplardan birini dəstəkləyən azarkeşlərə də bənzəyirlər. Adətən belə idman yarışlarında azarkeşlər arasında mübahisə, amansızlıq və çəkişmələr baş verir. Bütün bu sadalananlardan yaxa qurtarmağın yolları isə aşağıdakılardır:

**Birinci:** Cərh etmə və çəkindirmə məsələsinə gəlincə aşağıdakılara riayət olunmalıdır:

**1 –** Vaxtlarını alimləri və elm tələbələrini cərh etməyə sərf edənlər Allahdan qorxmalı, insanların ayıblarını arayıb araşdırmaqdansa öz ayaıbları ilə məşğul olaraq onları aradan qaldırmağa səy göstərməlidir. Beləsi çalışmalıdır ki, əldə etdiyi savabları mühafizə edərək, onları barələrində danışdığı kəslərə paylamış olmasın. Çünki yalnız sağlam qəlblə Allahın qarşısına çıxanlardan savayı nə mal-

dövlətin, nə də övladların fayda verməyəcəyi gün onun həmin savablara hər kəsdən daha çox ehtiyacı olacaqdır.

**2 –** Gərək beləsi vaxtını cərh etməyə və insanları çəkindirməyə sərf etməkdənsə, faydalı elm tələb etməklə, çalışmaqla, öyrənib öyrətməklə keçirsin. İnsanın öz vaxtını elmə həsr etməsi, öyənib öyrətməsi, dəvət edərək, kitab yazması onun üçün olduqca xeyirlidir. Vaxtını bunlara sərf edən kəs qurucu hesab olunur. Həmçinin gərək insan vaxtını Əhli Sünnədən hesab olunan alimləri və elm tələbələrini cərh etməyə, habelə onlardan faydalanmağın qarşısını almağa səy göstərməsin. Bunları edən dağıdıcılardan hesab olunur. Vaxtını insanlara qara yaxmağa sərf edənlər özlərindən sonra heç bir faydalı elm qoyub getmirlər. Belələri öldükdə insanlar onun şərində yaxa qurtarmış olur və onun ölümünü əsla itki saymırlar.

**3 –** Əhli Sünnəyə mənsub elm tələbələri gərək hər zaman öz vaxtlarını elmlə məşğul olmağa, faydalı kitablar oxumağa, Şeyx İbn Bəz və şeyx İbn Useymin kimi mötəbər alimlərin kasetlərini dinləməyə sərf etsin və alimlərə bir-bir zəng etməklə məşğul olaraq: “Filankəs barədə nə düşünürsən?”, “Filankəsin filan sözü barədə nə düşünürsən?” və ya “filankəsin filankəs barəsində dediklərinə necə baxırsan?” – kimi suallar verməsin.

**4 –** Elm tələbələri hər hansı bir alim haqqında soruşmaq istədikdə ər-Riyaddakı Fətvalar üzrə Daimi Komitəyə müraciət edərək öyrənməlidir ki, həmin alimdən elm

almaq, habelə onun fətvalarına riayət etmək olar, yoxsa yox?! Müəyyən bir alim haqqında xüsusi məlumatları olan kəs də həmin komitəyə bu barədə yazılı məlumatla müraciət edə bilər. Beləliklə də kiminsə haqqında cərh və çəkinmə, yaxud ondan elm və fətva götürməyin caiz olub olmaması haqqında qərar mötəbər bir mənbə tərəfindən verilmiş olar. Hər bir halda fətvaların verilməsi məsələsində ən mötəbər hesab olunan mənbə  kimdən elm və ya fətva alınıb alınmaması məsələsinə aydınlıq gətirməlidir. Heç kəs özünü bu cür məsələlərdə əsas mənbə hesab etməməlidir. Belə ki, kişinin özünə aid olmayan məsələləri tərk etməsi onun İslamının gözəlliklərindəndir.

**İkinci:** Xəta edənə rədd vermə barədə aşağıdakılara riayət olunmalıdır:

**1 –** Gərək verilən rədd nəzakətli və yumşaq formada olmalı və səhv buraxanın həmin xətadan dönməsinə güclü rəğbət bəslənilməlidir. Bununla yanaşı gərək həmin xəta açıq-aydın xəta hesab edilsin. Rəddin nə cür olması barədə faydalanmaq üçün Şeyx Abduləziz ibn Bəzin (Allah ona rəhmət eləsin) fətvalarına müraciət olunmasını tövsiyə edirik.

**2 –** Barəsində rəddiyyə yazılmış xəta açıq-aydın xətalardan olmadıqda və həmin rəddiyyə edənin iradlarının həm doğru, həm də səhv ola bilməsi ehtimal olunduqda həmin məsələnin təfsilatına varmaq üçün Fətvalar üzrə Daimi Komitəyə müraciət olunmalıdır. Yox əgər xətanın

açıq-aydın olduğu bəlli olarsa onu buraxan kəs gərək həmin fikirdən daşınsın. Çünki haqqa tərəf qayıtmaq batilə israr etməkdən daha xeyirlidir.

**3 –** Birisi digərinə rədd verdikdən sonra o, üzərinə düşəni yerinə yetirmiş hesab olunur. Bundan sonra o, rədd verdiyi kəsi araşdırmaqla məşğul olmamalı, əksinə vaxtını həm özünə, həm də başqalarına fayda verəcək elmə sərf etməlidir. Şeyx Abduləziz ibn Bəz (Allah ona rəhmət eləsin) daim belə edərdi.

**4 –** Gərək elm tələbəsi, rədd edən, yaxud rədd olunan alimin tərəfini saxlayan digər elm tələbəsini yoxlayıb sonra da onun fikrinə müvafiq olduqda salamat, olmadıqda isə bidətçi hesab etməklə insanları ondan çəkindirməsin. Heç kəsin də haqqı yoxdur ki, insanları bu minvalla bidətçi hesab edərək, insanları ondan çəkindirmək mövqeyini Əhli Sünnəyə nisbət etsin. Habelə heç kəsin haqqı yoxdur ki, fitnələrə səbəb olan bu yolu tutub gedənləri Sələf mənhəcinin əlahiddə ardıcıllarından hesab etsin. Əhli Sünnəyə görə bir kəsdən o zaman uzaqlaşmaq olar ki, bunun ona faydası olsun. Misal üçün atanın öz övladını, yaxud şeyxin öz tələbəsini tərk etməsi kimi. Həmçinin insanlar arasında yüksək məqama və xüsusi hörmətə malik olan kəsin də kimi isə tərk etməsini buna aid etmək olar. Belələrinin kimi isə tərk edib onlardan uzaqlaşması tərk olunanlar üçün adətən faydalı olur. Bəzi elm tələbələ-

rinin digərlərini tərk etmələri, xüsusən də tərk olunmasına səbəb olmayan əməllərə görə tərk etmələri tərk olunana heç bir fayda vermir. Əksinə bu, tərəflər arasında bir-birilərinə qarşı amansızlıq, bir-birilərinə arxa çevirmə və əlaqələrin kəsilməsi ilə nəticələnir. Şeyxul-İslam İbn Teymiyyə (Allah ona rəhmət eləsin) "Məcmu əl-fətava" əsərində[1] Yezid ibn Muaviyə barəsində söhbət açarkən demişdir: "Daha doğru rəy mötəbər alimlərin dediyi kimidir. Yezidə qarşı xüsusi sevgi bəslənməməli, eyni zamanda ona lənət də edilməməlidir. Belə ki, əgər o, fasiq və zalım birisi olmuşsa, Allah fasiq və zalım olan kəsləri etdikləri böyük savab işlərin müqabilində bağışlaya bilər. Buxarinin "Səhih" əsərində İbn Ömərdən ﵁ rəvayət olunan hədisdə Peyğəmbər ﷺ demişdir: "Konstantinopola qarşı müharibə aparacaq ilk ordu bağışlanmışdır." Konstantinopola qarşı müharibə aparmış ilk ordunun rəhbəri də Yezid ibn Muaviyə olmuşdur. (Məşhur səhabə) Əbu Əyyub əl-Ənsari ﵁ də onlarla birlikdə olmuşdur.

Odur ki, bu məsələyə diqqətlə yanaşmaq, Yezid ibn Muaviyənin əli ilə müsəlmanların başına gəlmiş imtahan barədə susmağı tərcih etmək lazımdır. Şəkk yoxdur ki, bu barədə danışmaq Əhli Sünnə vəl-Cəmaanın mövqeyinə müxalif bir bidətdir."

[1] Məcmu əl-fətava əsəri, (3/413-414).

Həmçinin başqa bir yerdə[1] demişdir: "Həmçinin ümmətin arasında təfriqə salaraq, nə Uca Allahın, nə də rəsulunun əmr etmədiyi bir şeylə insanları imtahan etmək də əsla yolverilmədir."

Yenə başqa bir yerdə[2] demişdir: "Heç kəsin ixtiyarı yoxdur ki, Peyğəmbərdən ﷺ başqa öz yoluna çağıran və bu yola tabe olanlarla dostluq, olmayanlarla isə düşmənçilik edilən ikinci bir kəsi bu ümmətə təyin etsin. Yaxud Allahın və Onun Rəsulunun kəlamlarından, habelə ümmətin icma etdiyi kəlamlardan başqa ikinci bir şəxsin kəlamı yoxdur ki, ona tabe olanla dostluq, olmayanlarla düşmənçilik edilsin. Əksinə bu bidət əhlinin əlamətidir ki, onlar özlərinə müəyyən şəxslər və kəlamlar seçərək bununla ümməti parçalayırlar. Onlar həmin şəxs və kəlamlara görə insanlarla dostluq və ya düşmənçilik edirlər.

Həmçinin başqa bir yerdə[3] demişdir: "Əgər müəllim və ya ustad hər hansı bir şəxsi tərk etməyi, aşağılamağı, ondan uzaq olmağı və onu gözdən salmağı əmr edərsə həmin şəxsin halına nəzər salmaq gərəkdir. Həmin şəxs şəri baxımdan xətaya yol vermiş olduqda həmin xətanın mislindən ziyadə olmadan cəzalandırılmalıdır. Yox əgər həmin şəxs şəri baxımdan xətaya yol verməmişdirsə o

[1] Məcmu əl-fətava əsəri, (3/415).
[2]Məcmu əl-fətava əsəri, (20/164).
[3] Məcmu əl-fətava əsəri, (28/15-16).

zaman müəllimin şəxsi istəyinə görə onu cəzalandırmaq olmaz.

Gərək müəllimlər də insanları parçalayaraq onların arasında ədavət və kinə səbəb ola biləcək sözlər söyləməsinlər. Əksinə gərək onlar yaxşılıq və təqva üzərində əməkdaşlıq edən qardaşlardan olmalıdırlar. Uca Allah buyurur: **"Yaxşılıq etməkdə və Allahdan qorxmaqda bir-birinizə yardım edin. Günah işlər görməkdə və düşmənçilik etməkdə bir-birinizə köməkçi olmayın."**[1] Hafiz İbn Rəcəb (əl-Hənbəli) "Cami əl-ulumi val-hikəm" əsərində[2] "Kişinin özünə aid olmayan şeyləri tərk etməsi onun İslamının gözəlliklərindəndir." hədisini şərh edərkən demişdir: "Bu hədis ədəb-ərkan qaydalarının əsasını təşkil edir. İmam Əbu Amr ibn əs-Saləh Maliki məzhəbində öz dövrünün imamı hesab olunan Əbu Muhəmməd ibn Əbu Zeydin belə dediyini nəql etmişdir: "Hər bir xeyirə vəsilə olan ədəb-ərkan qaydaları dörd hədisdə təşəkkül tapmışdır: "Kim Allaha və Axirət gününə iman gətirirsə ya xeyir söyləsin, ya da sussun", "Kişinin özünə aid olmayan şeyləri tərk etməsi onun İslamının gözəlliklərindəndir". Peyğəmbərin müxtəsər olaraq verdiyi "Qəzəblənmə" tövsiyəsi, bir də Peyğəmbərin ﷺ: "Mömin özünə istədiyini qardaşına istəyən kəsdir." – sözü."

[1] əl-Maidə, 2.

[2] Cami əl-ulumi val-hikəm (1/288).

Dövrümüzdə elm tələbələrinin bu hədisləri oxuyub onlara əməl etmələrinə necə də böyük ehtiyac vardır. Bu həm onların özlərinə, həm də başqaları üçün çox faydalıdır. Bu ədəb normalarına riayət etmək amansızlığa, təfriqəyə, qəlblərin bir-birindən uzaqlaşmasına səbəb olan hər növ kobudluq və etinasızlıqdan da uzaq olmağa səbəbdir.

**5 –** Özünə nəsihət edən hər bir elm tələbəsi internet saytlarında bəzilərinin digərləri barəsində söylədiklərini, habelə qarşı tərəfin cavablarını izləməkdən çəkinməlidir. Əvəzində interneti açdıqda Şeyx Abduləziz ibn Bəz (Allah ona rəhmət eləsin) kimi mötəbər alimlərin saytlarını açaraq vaxtını oradakı elmi araşdırmalarla, yaxud indiyə qədər iyirmi bir cilddən ibarət olan İbn Bazın fətvaları ilə, və ya indiyədək iyirmi cilddən ibarət olan Fətvalar üzrə Daimi Komitənin fətvaları ilə, yaxud Şeyx Muhəmməd ibn Saleh əl-Useyminin (Allah ona rəhmət eləsin) saytına girərək onun çoxsaylı əsərləri və fətvaları ilə tanış olmaqla keçirməlidir.

Sonda bütün elm tələbələrinə tövsiyəm odur ki, Allahın onları elm tələb etməyə müvəffəq etməsinə görə ona şükürlər etsinlər. Elm tələb etdikdə ixlaslı olsunlar, elmi əldə etmək üçün əllərində olan hər şeyi sərf etsinlər, asudə vaxtlarını yalnız elmə sərf etsinlər, çünki elm sadəcə təmənna edərək tənbəllik etməklə əldə olunmur.

Yəhya ibn Əbu Kəsir əl-Yəmami demişdir: “Rahat bədənlə elmə nail olmaq mümkün deyil.” Bu rəvayəti muslim öz “Səhih” əsərində namazın vaxtları ilə bağlı hədisləri qeyd etdiyi zaman zikr etmişdir. Allahın kitabında, habelə Rəsulunun ﷺ sünnəsində elmin şərəfli məqamı və elm əhlinin fəziləti barədə bir sıra ayə və hədislər vardır. Uca Allah buyurur: **“Allah Özündən başqa *ibadətə layiq olan* məbudun olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də *şahidlik etdilər*.”**[1] Həmçinin buyurur: **“De: “Heç bilənlərlə bilməyənlər eyni ola bilərmi?”**[2] Başqa bir ayədə buyurur: **“Allah sizdən iman gətirənlərin və özlərinə elm verilmiş kimsələrin dərəcələrini ucaldar.”**[3] Həmçinin buyurur: **“Ey Rəbbim! Elmimi artır!”– de.”**[4] Bu barədə varid olmuş hədislərə gəldikdə isə Peyğəmbər ﷺ demişdir: “Allah kimə xeyir nəsib etmək istəsə onu dində fəqih edər.” Hədisi Buxari[5] və Muslim[6] rəvayət etmişlər. Hədisdə bildirilir ki, Allahın insana dində elm bəxş etməsi Onun həmin insana xeyir istəməsinin əlamətidir. Çünki belə olduqda o, Allaha elmlə ibadət edəcək, habelə başqalarını da elmlə dəvət edəcəkdir. Həmçinin Peyğəmbər ﷺ

---

[1] Ali imran, 18.
[2] əz-Zumər, 9.
[3] əl-Mücadilə, 11.
[4] Ta ha, 114.
[5] Buxari (71).
[6] Muslim (1037).

demişdir: “Ən xeyirliniz Quranı öyrənib onu öyrədəninizdir.” Hədisi Buxari rəvayət etmişdir.[1] Başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Həqiqətən də Allah bu kitabla bəzilərini ucaldır, bəzilərini isə alçaldır.” Hədisi Muslim rəvayət etmişdir.[2] Həmçinin Peyğəmbər ﷺ demişdir: “Mənim sözümü eşidib, mənimsəyərək, onu eşitdiyi kimi başqalarına çatdıran kəsi Allah nurlandırar.” Bu Mütəvatir hədisdir və iyirmidən çox səhabədən nəql olunmuşdur. Bu hədisin bütün rəvayətlərini qələmə aldığım “Dirasətu hədis: “Naddarallahumriən səmiə məqaləti” rivayətən və dirayətən” əsərində qeyd etmişəm. Digər bir hədisdə Peyğəmbər ﷺ demişdir: “Kim elm öyrənmək üçün yola düşərsə, Allah onun üçün Cənnətə gedən yolu asanlaşdırar. Şübhəsiz ki, mələklər də qanadlarını elm tələb edən kəsdən razılıq əlaməti olaraq endirər. Elmli olan kəs üçün göydə və yerdə olan hər kəs, hətta dəryadakı balıqlar belə bağışlanma diləyərlər. Alimin abiddən fərqi bədrlənmiş on dörd gecəlik ayın digər ulduzlardan fərqi kimidir. Şəkk yoxdur ki, alimlər peyğəmbərlərin varisləridir. Peyğəmbərlər isə nə bir dinar, nə də bir dirhəm miras qoyub gedirlər. Onlar elmi miras qoyub gedirlər. Ona nail olan kəs bir çox xeyirə nail olmuş olar.” Hədisi Əbu Davud[3] və

---

[1] Buxari, (5027).

[2] Muslim (817).

[3] Əbu Davud (3628).

başqaları Həsən liğeyrihi olaraq rəvayət etmişdir. Bu hədisin geniş təxrici ilə "Səhih tərğib və tərhib" əsərində[1], habelə "Taliq alə Musnəd İmam Əhməd" əsərində[2] tanış ola bilərsiniz. Hafiz İbn Rəcəb bu hədisi ayrıca bir cüzdə şərh etmişdir. Hədisin birinci cümləsi Muslimin "Səhih" əsərində[3] öz təsdiqini tapmışdır. Həmçinin Peyğəmbər ﷺ demişdir: "İnsan öldükdə onun bütün əməlləri kəsilir. Yalnız üç əməldən başqa: davamlı sədəqə, faydalı elm, bir də özü üçün dua edən saleh övlad." Hədisi Muslim[4] rəvayət etmişdir. Həmçinin başqa bir hədisdə Peyğəmbər ﷺ demişdir: "Kim (insanları) doğru yola dəvət edərsə, ona bu yola tabe olanların əldə etdikləri əcrin mislində əcr yazılar və bu onların əcrlərindən heç bir şey əksiltməz. Həmçinin kim (insanları) azğınlığa səsləyərsə ona bu azğınlığa tabe olanların əldə etdikləri günahın mislində günah yazılar və bu onların günahlarından heç bir şey əksiltməz." Hədisi Muslim[5] rəvayət etmişdir.

Həmçinin tövsiyəm budur ki, hər kəs vaxtını qoruyaraq onu yalnız xeyirli işlərə sərf etsin. Belə ki Peyğəmbər ﷺ demişdir: "İki nemət vardır ki, insanların əksəriyyəti bunda aldanmışlar: Bu sağlamlıq, bir də boş vaxtdır." Hədisi Buxa-

---

[1] Səhih Tərğib və Tərhib (70).
[2] Taliq alə Musnəd İmam Əhməd (21715).
[3] Muslimin "Səhih" əsəri (2699).
[4] Muslimin "Səhih" əsəri (1631).
[5] Muslimin "Səhih" əsəri (2674).

ri öz "Səhih" əsərində[1] rəvayət etmişdir. Bu hədis Buxarinin "ər-Riqaq" fəslinin ilk hədisidir. Həmin fəsildə[2] Əli ibn Əbu Talibdən ﷺ də bir rəvayət qeyd olunur. Həmin rəvayətdə o, demişdir: "Dünya üzünü çevirib gedir, Axirət isə üzü bizə sarı gəlməkdədir. Onların hər ikisinin övladları vardır. (Çalışın ki,) dünyanın övladlarından deyil, axirətin övladlarından olasınız. Bu gün əməl var, hesab isə yoxdur. Sabah isə (əksinə) hesab olacaq, əməl isə yox."

Həmçinin tövsiyə edirəm ki, hər kəs özünə aid olan məsələlərlə məşğul olsun, özünə aid olmayan məsələlərə isə girişməsin. Peyğəmbər ﷺ demişdir: "Kişinin özünə aid olmayan məsələləri tərk etməsi onun İslamının gözəlliklərindəndir." Hədisi Tirmizi[3] və başqaları həsən olaraq rəvayət etmişlər. Həmçinin bu hədis Nəvəvinin "Qırx hədis" əsərində on ikinci hədisdir.

Əlavə olaraq tövsiyəm budur ki, hər kəs ədalətli olsun, həddi aşmaq və sərtlik arasında, habelə ifrata və ya təfritə varmaq arasında orta mövqe tutsun. Belə ki, Peyğəmbər ﷺ demişdir: "Dində həddinizi aşmaqdan çəkinin, çünki sizdən əvvəlkilər məhz dində hədlərini aşmaları ucbatından həlak oldular." Bu səhih hədisdir və Vida Həcci ilə əlaqədar varid olmuş hədislərdən biridir. Hədisi Nəsai və

[1] Buxari (6412).
[2] Fəthul-Bari (11/235).
[3] Tirmizi (2317).

başqaları rəvayət etmişlər. Hədisin təxrici ilə Albaninin "Silsilətul-əhadisis-səhihə" əsərində[1] tanış ola bilərsiniz.

Habelə hər kəsə zülm və haqsızlıq etməkdən çəkinməyi tövsiyə edirəm. Qüdsi bir hədisdə Uca Allah buyurur: "Ey qullarım! Mən zülmü özümə haram etdim, sizin aranızda da onu haram buyururam, odur ki, bir-birinizə zülm etməyin!" Hədisi Muslim[2] rəvayət etmişdir.

Həmçinin Peyğəmbər ﷺ demişdir: "Zülmdən qorxun, çünki zülm Qiyamət günü zülmətlərə çevriləcəkdir."

İzzət və Cəlal Sahibi olan Allahdan diləyirəm ki, hər kəsi faydalı elm əldə etməyə, həmin elmə əməl etməyə, həmin elmə elmli surətdə dəvət etməyə müvəffəq etsin, hamını haqq və doğru yol üzərində cəm etsin, hər bir kəsi də zahirdə və gizlində olan fitnələrdən qorusun. Şübhəsiz ki, O, buna Qadirdir. Allahın qulu və elçisi olan peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə, səhabələrinə və Qiyamətədək onların yoluna tabe olanlara Allahın salavatı, salamı və bərəkəti olsun.

---

[1] Silsilətul-əhadisis-səhihə (1283).

[2] Muslim, (2577).

# Növbəti dəfə ey Sünnə əhli bir-birinizlə mehriban davranın

**Müəllif:**
**Abdul-Muhsin əl-Abbad**

# Rəhimli və Mərhəmətli Allahın adı ilə

Həmd aləmlərin Rəbbi olan Allaha məxsusdur. Qüdrət və güc yalnız Allahdadır. Qulun, rəsulun və peyğəmbərin Muhəmmədə, onun ailəsinə, səhabələrinə və onun ardıcıllarına salavat, salam və bərəkət olsun.

Şübhəsiz ki, Əhli Sünnə val-cəmaaya mənsub olan və ümmətin sələflərinin yolu ilə gedən kəslərdən şəriət elmi ilə məşğul olanlar hal-hazırkı dövrümüzdə öz aralarında daha çox mehriban davranmalı və bir-birilərinə nəsihət etməlidirlər. Əlòlxüsus da ona görə ki, ümmətin sələflərinin yolu ilə gedənlər digər sapıq firqə və dəstələrə nisbətən sayca azlıq təşkil edirlər. Təxminən on il bundan öncə, iki möhtəşəm alim şeyximiz Abduləziz ibn Bəz və şeyx Muhəmməd ibn Useymin (Allah onlara rəhmət eləsin) hələ sağ ikən Əhli Sünnəyə mənsub olan azsaylı bir toplum ümmətin sələflərinin yoluna müxalif olan bəzi firqələrdən insanları çəkindirməklə məşğul idilər. Şəkk yoxdur ki, onların bu əməlləri təqdirəlayiq hesab olunur. Lakin əfsuslar olsun ki, hər iki şeyxin vəfatından sonra həmin qrupun bəzi üzvləri həm ölkə daxilində, həm də ölkənin hüdudlarından kənarda olan Əhli Sünnəyə mənsub qardaşlarına qarşı nalayiq ifadələr işlədərək onları ümmətin sələflərinin yolunu tutub getməyə səslədilər. Əgər onlar sözün həqiqi mənasında xətaya yol vermiş olsaydılar o zaman onlara dəstək verməklə xətalarını düzəltmələri onların

boynuna düşən bir haqq olardı. Lakin vaxtlarını müxtəlif məclislərdə onların barəsində danışaraq insanları onlardan çəkindirməyə sərf etməməli, bunun əvəzində vaxtlarını faydalı elmə sərf edərək ona dəvət etməklə məşğul olmalıdırlar. Dövrümüzdə Əhlis-Sünnə val-cəmaanın imamı hesab olunan şeyx Abduləziz ibn Bəzin (Allah ona rəhmət eləsin) düzgünlük və islah yolu hesab etdiyi mövqe məhz belə idi. Belə ki, dövrümüzdə Əhli Sünnənin arasında elmlə məşğul olanlar çox azdır, onların azalmağa deyil artıma, parçalanmağa deyil mehribançılığa daha çox ehtiyacları vardır. Onların barəsində dilçi alimlərin bir sözünü də söyləmək olar: "Kiçildilmiş daha çox kiçilməz." Şeyxul İslam İbn Teymiyyə "Fətvalar məcmusu" əsərində [1] demişdir: "Bildiyiniz kimi dini özündə cəm edən ən mühüm qaydalardan biri də qəlblərin yaxınlığı, birliyin bərqərar olması və müsəlmanların aralarının düzəlməsidir. Uca Allah buyurur: **"Allahdan qorxun və aranızdakı münasibətləri düzəldin."** [2] Həmçinin buyurur: **"Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın!"**[3] Başqa bir ayədə buyurur: **"Özlərinə aydın dəlillər gəldikdən sonra firqələrə ayrılıb ixtilaf edənlər kimi olmayın. Onları böyük bir əzab gözləyir."**[4] Birliyi və yaxınlığı əmr

[1] Məcmu əl-fətava, 28/51.
[2] əl-Ənfal, 1.
[3] Ali İmran, 103.
[4] Ali İmran, 105.

edən və parçalanma və təfriqəni qadağan edən dəlillər olduqca çoxdur. Bu əsasa riayət edənlər camaat əhli, riayət etməyənlər isə təfriqə əhlidir.”

Mövzu ilə əlaqədar “Ey Peyğəmbərin ﷺ yolunu gedən müsəlmanlar bir-birinizlə mehriban davranın” adlı bir risaləm vardır. Həmin risalə bir neçə dəfə, hicrətin 1424-cü ilində, 1426-cı ilində, bir də 1428-ci ildə kitab və risalələrimlə birlikdə (6/281-327) nəşr olunmuşdur. Həmin risalədə mən Quran, Sünnə və görkəmli Əhli Sünnə alimlərinin bir sıra sözlərini qeyd etmişəm. Risalə müqəddimədən sonra aşağıdakı mövzuları əhatə edirdi:

- Danışma və açıqlama neməti,
- Yalnız xeyir söz söyləməklə dili qorumaq,
- Zənn və casusluq etmək,
- Mülayimlik və yumşaqlıq,
- Alim xəta etdiyi zaman Əhli Sünnə val-camaanın mövqeyi, bu zaman həmin alim üzürlü hesab olunmalı, bidətçi hesab olunaraq tərk edilməməlidir,
- Dövrümüzdəki bəzi Əhli Sünnə alimlərinin cərh olunaraq tərk olunmaları fitnəsi və bundan yaxa qurtarmağın yolu.
- İnsanlara müəyyən şəxslər barəsində suallar verməklə yoxlanılması bidəti,
- Dövrümüzdəki bəzi Əhli Sünnə alimlərinin cərh edilərək bidətçi olunmalarından insanları çəkindirmək.

Əfsuslar olsun ki, son dövrlər Sünnə əhlindən olanların bir-birilərinə qarşı qarşılıqlı cərh etmə, bidətçi adlandırma, o cümlədən bir-birilərini tərk etmə halları artmaqdadır. İndi belə suallar çox verilir: "Filankəs haqqında fikriniz nədir? Filankəs onu bidətçi adlandırmışdır?", "Filankəsin bidətçi adlandırdığı filankəsin kitabını oxuya bilərəmmi?". Bəzən də bəzi kiçik tələbələr öz həmkarlarına sual edirlər ki; "Filankəsin bidətçi adlandırdığı filankəs barədə sənin mövqen necədir? Gərək sən öz mövqeni bildirəsən, yoxsa səni də tərk edərik." Bundan daha pisi buna bənzər halların Avropa ölkələrindəki Əhli Sünnə tələbələri arasında da geniş vüsət almasıdır. Onlar dərin dini biliklərə malik deyillər və elmi biliklərinin artırılmasına, habelə cərh edib uzaqlaşma fitnəsindən yaxa qurtarmağa daha çox ehtiyac duyurlar. Hansı ki, bu mənhəc "İxvanul muslimin"[1] partiyasının tutduğu yola bənzəyir. Vaxtilə həmin partiyanın təsisçisi belə demişdi: "Partiyanın apardığı dəvət, onun insanlara tərəf deyil, insanların ona tərəf gəlməsini zəruri edir. Belə ki, hər növ xeyir bu dəvətdə cəm olunmuşdur. Başqaları isə naqislikdən xali deyillər." Şeyx Həsən əl-Bənnanın "Muzəkkəratud-davati vad-dəiyə" əsəri, 232-ci səh. (Daruş-Şihab nəşriyyatı). Həmçinin demişdir: "Dövrümüzdə geniş yayılmış, qəlbləri bir-birindən ayıran, təfəkkürləri qarışdıran müxtəlif çeşidli dəvət-

[1] "Müsəlman qardaşları" partiyası.

lərlə bağlı mövqeyimiz ondan ibarətdir ki, gərək həmin dəvətləri apardığımız dəvətin tərəzisi ilə ölçək. Dəvətimizin prinsipləri ilə uzlaşan məsələləri qəbul edək, dəvətimizə müxalif olan məsələlərdən isə uzaq olaq!!!" (Məcmuətu rasəil Həsən əl-Bənna, 240-cı səh. Darud-dəvət, hicrətin 1411-ci ili).

Yaxşı olar ki, həmin tələbələr bu fitnəyə baş qoşmaqdansa vaxtlarını faydalı kitablar, ələlxüsus da müasir alimlərin əsərlərini, o cümlədən şeyximiz Şeyx Abdüləziz ibn Bəzin, Şeyx İbn Useyminin, Fətvalar üzrə Daimi Komitənin və başqa alimlərin fətva və əsərlərini oxumağa sərf etsinlər. Bu minvalla onlar böyük bir faydalı elmə yiyələnər, ən əsası isə dedi-qodudan və Əhli Sünnədən olan bəzi qardaşlarının ətini yeməkdən yaxa qurtarmış olarlar.

İbn əl-Qeyyim "Cavab əl-Kafi" əsərində (203-cü səhifə) demişdir: "Çox qəribədir ki, bəzən insan haram yeməkdən, zülmdən, oğurluqdan, şərab içməkdən, harama nəzər salmaqdan və digər haram buyurulmuş əməllərdən asanlıqla qoruna bildiyi halda dilini qorumaq ona çətin gəlir. Hərdən insanlar arasında dini, təqvası, zahidliyi və ibadəti ilə tanınan birisi heç fərqinə belə varmadan Allahı qəzəbləndirən elə bir söz danışır ki, həmin sözə görə məşriqlə məğribin arasındakı məsafə qədər (Cəhənnəm oduna) enmiş olur. O qədər insan vardır ki, çirkin əməllərdən və zülmdən uzaq olsa belə dili ölülərin və dirilərin barəsində fərqinə belə varmadan nalayiq ifadələr işlədir."

Sünnə əhlindən olan bir kimsənin hər hansı bir müxtəsər, yaxud da əhatəli fikri ilə rastlaşdıqda ilk əvvəl onun barəsində yaxşı zənn etmək, söylədiyi müxtəsər sözü isə əhatəli sözünə şamil etmək gərəkdir. Ömər ibn əl-Xəttab (Allah ondan razı olsun) demişdir: "Mömin qardaşından çıxan hər hansı bir sözü xeyirə yozmaq imkanın olduğu təqdirdə onun barəsində əsla pis zənn etmə, yalnız yaxşı zənn et." İbn Kəsir bu sözü əl-Hucurat surəsinin təfsirində qeyd etmişdir.

Şeyxul-İslam İbn Teymiyyə "ər-Raddu aləl-Bəkri" əsərində (324-cü səhifə) demişdir: "Məlum məsələdir ki, insanın təfsilatı ilə danışdıqları müxtəsər danışdıqlarını, açıq-aydın söylədikləri isə üstüörtülü kinayə ilə dediklərini açıqlayır." Həmçinin (Şeyxul-İslam İbn Teymiyyə) "əs-Sarimul məslul" əsərində (2/512) demişdir: "Fiqh alimlərinin görüşlərini onların mütləq şəkildə söylədiklərindən götürərək, onların həmin sözlərinə verdikləri açıqlamalarına, habelə onların üsul qaydalarının əsaslarına nəzər salmamaq sonda pis nəticələrə gətirib çıxarır." Həmçinin "əl-Cavab əs-sahih limən bəddələ dinəl-Məsih" əsərində (4/44) demişdir: "Danışanın bəzi dediklərini digər dedikləri ilə açıqlamaq gərəkdir. Odur ki, insanın müxtəlif məqamlarda söylədiklərinin hamısı götürülməlidir ki, bununla onun müəyyən bir ləfzi işlətdikdə nəyi qəsd etdiyi bəlli olsun."

Həm tənqid edənlər, həm də tənqidə məruz qalanlar məsum deyillər və onlardan heç biri naqislik və xətalar-

dan xali deyillər. Kamilliyi araşdırmaq lazımdır. Lakin kamillik mərtəbəsinə yetişməyən, eyni zamanda bir çox xeyiri özündə birləşdirən amilləri hədər etmək də yolverilməzdir. "Ya kamil, ya da heç nə", yaxud da "ya tam işıqlıq, ya da zülmət" – demək doğru deyildir. Əvəzində işığı zəif olanı qoruyaraq onun işığını artırmağa çalışmaq lazımdır. İki və daha artıq çıraq olmadığı təqdirdə bir çıraq qaranlıqdan daha xeyirlidir. Allah şeyximiz Şeyx Abdul-əziz ibn Bəzə rəhmət eləsin. O, öz həyatını şəriət elmlərini öyrənməyə, öyrətməyə, əməl etməyə və dəvət etməyə həsr etmişdir. O şeyxləri və elm tələbələrini elmə və dəvətə həvəsləndirirdi. Bir dəfə onun bir şeyxə bu barədə tövsiyə verdiyinin şahidi oldum. Lakin onun gətirdiyi üzrxahlığı şeyx bəyənmədi. O (Allah ona rəhmət eləsin) belə dedi: "Bütünlükdə əldə olunması mümkünsüz olan bir şeyin bir hissəsini əldə etməkdən vaz keçilməz." Əgər qüvvətli bir görmə qabiliyyətin yoxdursa, bil ki, zəif görmə qabiliyyəti tamamilə kor olmaqdan daha xeyirlidir. Bildiyimiz kimi, şeyximiz (Allah ona rəhmət eləsin) iyirmi yaşında ikən görmə qabiliyyətini tamamilə itirmişdi. Lakin Allah bunun əvəzində ona elə bir bəsirət nuru bəxş etmişdir ki, onun vasitəsilə o, hər yerdə məşhurlaşmışdı. Şeyxul-İslam İbn Teymiyyə "Məcmu əl-fətava" əsərində (10/364) demişdir: "Saf bir nuru əldə etmək müyəssər olmadıqda, tamamilə zülmətdə qalmaqdansa saf olmayan nura yiyələnmək daha yaxşıdır. Yalnız saf bir nur mövcud

olduğu təqdirdə saf olmayan bir nura yiyələnmiş kəsdə nöqsan tutmaq olar. Bir çox insanlar vardır ki, belə etmədiklərinə görə nurdan tamamilə məhrum olublar." İnsanlar arasında buna bənzər başqa bir söz də vardır: "Haqq hissələrə bölünməz. Ya onu tam götürün, ya da bütünlüklə tərk edin." Şübhəsiz ki, haqqı büs-bütün götürmək haqq, tamamilə tərk etmək isə batildir. Kim müəyyən qədər haqq üzərindədirsə ona malik olduğu haqq üzərində qalmaq və malik olmadığı haqqı tələb etmək tövsiyə olunmalıdır.

Tərk etməyə gəlincə bu zərəri deyil, yalnız faydası olacağı zaman bəyənilir. Şeyxul-İslam İbn Teymiyyə "Məcmu əl-fətava" əsərində (28/173) demişdir: "Əgər müsəlmanlar öz aralarında baş verən hər bir ixtilafa görə bir-birilərini tərk etmiş olsalar, müsəlmanlar arasında nə qardaşlıq qalar, nə də mehribançılıq." Həmçinin başqa bir yerdə demişdir: "Tərk etmə məsələsinə gəlincə bu, tərk edənlərin güclü və ya zəif, habelə az və ya çox olmalarına bağlıdır. Burada əsas məqsəd tərk olunanın tənbeh olunaraq islah olunması, habelə insanların onun etdiyini təkrarlamamasıdır. Beləcə əgər tərk olunmaqda fayda varsa və bu şərin qarşısını alacaqsa bunu etmək düzgündür. Yox əgər nə tərk olunan, nə də başqaları bundan faydalanmırsa, əksinə bunun zərəri daha çoxdursa, tərk edənin bunun üçün yetərincə gücü yoxdursa o zaman bunu etmək olmaz." Sonra da demişdir: "Elə isə bilin ki, şəriətə uyğun

olan tərk etmə Allahın və Rəsulunun əmr etdiyi əməllərə görə olmalıdır. Belə ki istənilən itaət ixlasla Allah üçün edilməli, bir də Onun əmrinə müvafiq olmalıdır. Yalnız Allah üçün səmimi qəlblə edilən əməl doğru hesab olunur. Hər kim nəfsinin istəklərinə uyaraq, yaxud da şəriətin buyurmadığı şəkildə tərk edirsə onun bu əməli doğru hesab olunmur. Bir çoxları Allaha itaət etdiklərini düşünərək, nəfslərinin istəklərinə uyub nalayiq işlər görürlər."

Elm əhli bildirir ki, alim xəta etdikdə onun xətası götürülmür, lakin bununla belə həmin alim tərk olunmur. Belə ki, onun xətaları gördüyü yaxşı işlərin sayəsində bağışlanır. Bu xüsusda Şeyxul-İslam İbn Teymiyyə "Məcmu əl-fətava" əsərində (3/349) yuxarıda qeyd olunanların bənzərini qeyd etdikdən sonra demişdir: "Belələrinin yola verdikləri bidətlərdə məqsəd İslam ümmətini parçalamaq deyilsə və həmin bidətlərə əsaslanaraq insanlarla dostluq və ya düşmənçilik etmirlərsə həmin əməllər sadəcə xəta hesab olunur. Uca və Nöqsansız olan Allah belə məsələlərdə möminlərin buraxdıqları səhvləri bağışlayır. Ümmətin sələflərindən və alimlərindən bir çoxları ictihad edərək buna bənzər səhvlərə yol vermişlər. Halbuki onların ictihadları Quran və Sünnəyə ziddir. Özünə müvafiq olanlarla dostluq edib, müxalif olanlarla düşmənçilik edən, habelə müsəlmanların camaatını parçalayan kəslər isə istisnadır..."

Zəhəbi "Siyar əlam ən-nubəla" əsərində (14/39) demişdir: "Əgər biz ittifaq olunmamış məsələlərdə ictihad edərək bağışlanılan bir səhvə yol verən hər bir alimin üzərinə qalxıb, onu bidətçi hesab edərək tərk etmiş olsaq nə İbn Nasr, nə İbn Məndə, nə də onlardan daha mötəbər olan alimlər bizim əməllərimizdən salamat olmazdı. Şübhəsiz ki, insanları hidayətə yönəldən Allahdır. Rəhimlilərin rəhimlisi də Odur. Bu səbəbdən kobudluqdan habelə nəfsimizin istəklərinə uymaqdan Allaha sığınırıq." Həmçinin demişdir (14/376): "Əgər düzgün iman gətirdiyi və haqqa tabe olmağa həris olduğu halda etdiyi ictihadda səhvə yol verən hər kəsi bidətçi hesab edib tərk etmiş olsaq çox az sayda alim salamat qalar. Allah öz lütfü və səxavəti ilə onlara rəhmət eləsin." İbn əl-Cövzi bəzən cərh etmənin səbəblərinin insanın nəfsinin istəkləri ilə bağlı olduğunu qeyd etmişdir. O, qələmə aldığı "Sayd əl-xatir" əsərində (142-ci səh) demişdir: "Elmi səviyyələri və halları fərqli olan bir sıra şeyxlərlə görüşmüşəm. Onların arasında mənim üçün daha faydalı olanı başqalarından elm baxımından zəif olsa belə elminə əməl edəni idi. Mən bir toplum hədis alimi ilə də görüşmüşəm. Onlar əzbərləyib öyrənir, lakin qeybət edərək etdikləri əməli cərh və tədil elminə aid edirdilər... Mən Abdulvahhab əl-Ənmati ilə də görüşmüşdüm. O isə sələfin qanunlarına riayət edirdi. Onun iştirak etdiyi məclisdə qeybətə icazə verilməzdi..." Həmçinin (İbn əl-Cəuzi) "Təlbis İblis" əsərində (2/689)

demişdir: "İblisin hədis əhlinə qarşı işlətdiyi hiylələrindən biri də onların bir-birlərinə qarşı kin-küdurətə səbəb olan nalayiq ifadələr işlətmələridir. Onlar bunu ümmətin əvvəlkilərinin şəriəti qorumaq məqsədilə istifadə etdikləri cərh və tədildən hesab edirlər. Məqsədləri daha yaxşı bilən isə Allahdır." Əgər hicrətin 597-ci ilində vəfat etmiş İbn əl-Cəuzinin zamanında yaşayanlara bunlar söylənilirdisə on beşinci əsrdə yaşayanlara nə demək olar?!

Bir müddət öncə yəmənli şeyx Muhəmməd ibn Abdullah əl-İmamın qələmə aldığı "Əhlis-Sünnə val-cəmaanın arasında baş berən ixtilafları necə həll etmənin bəyanı" qiymətli bi risaləsi nəşr olunmuşdur. Həmin risaləni Yəmən şeyxlərindən beşi tərifləmişdir. Həmin risalədə bir sıra əvvəlki və müasir alimlərin, ələlxüsus da Şeyxul-İslam İbn Teymiyyə və İmam ibn əl-Qeyyimin (Allah onlara rəhmət eləsin) sözləri yer alır. Risalə Sünnə əhlinin öz aralarında gözəl bir tərzdə davranmasını tövsiyə edir. Həmin risalədəki mövzularla tanış olub, onlardan faydalanaraq İmam İbn Teymiyyə ilə İmam ibn əl-Qeyyimin bəzi sözlərini qələmə aldığım bu risalədə qeyd etmişəm. Mən həmin risaləni oxuyaraq ondan faydalanmağı hər kəsə tövsiyə edirəm. Qeyd olunan risalədə deyilən aşağıdakı ifadə (170-ci səh) necə də gözəldir: "Ola bilsin ki, Əhli Sünnədən olan mötəbər bir şəxs kimisə cərh etsin və bu müsəlmanların arasında parçalanma, tərk etmə və anlaşılmazlıqlara yol açmış olsun. Hətta ola bilsin ki, bu Əhli Sünnə-

nin arasında münaqişəyə belə gətirib çıxarsın. Belə olduğu təqdirdə bilmək lazımdır ki, həmin cərh etmə, fitnələrin baş qaldırmasına rəvac vermişdir. Gərək belə bir vəziyyətdə cərh etmənin üslubuna, onun faydalarına və ya fəsadlarına, səhvlərin aradan qalxmasına, qardaşlığın qorunmasına və dəvətin qarşısının alınmamasına diqqət yetirilsin. Zərəri olan cərh üslubunun üzərində israr etmək isə doğru deyildir."

Şəkk yoxdur ki, Əhli Sünnədən olan şeyxlər və digər elm tələbələri yəmənli qardaşlarının hiss etdiklərini hiss edir, baş verən ixtilaf və parçalanmaya görə təəssüf hissi keçirir və qardaşlarına nəsihət etmək istəyirlər. Yəmənli qardaşlar isə digərlərini bu məsələdə qabaqladıqları üçün Allah onları xeyirlə mükafatlandırsın. Yəqin ki, həmin risalənin Peyğəmbərin ﷺ aşağıdakı hədisindən bir payı vardır: "İman Yəməndədir, hikmət Yəməndədir." Hədisi Buxari (3499) və Muslim (188) rəvayət etmişdir. Ümid edirik ki, yəmənli qardaşlarımızın nəzərdə tutduqları nəsihəti bu risalə ilə həyata keçirmiş olduq. Düşünürəm ki, Əhli Sünnəyə mənsub olan heç kəs buna bənzər cərh etməni dəstəkləyib onun üzərində israrlı olmaz. Belə ki o, bu əməli ilə Əhli Sünnə arasında yalnız kin-küdurətə, ədavətə, qəlblərin sərtləşməsinə və kobudlaşmasına səbəb olur.

Aqil olan bir kəs gərək qərbmeyilli qüvvələrin iki müqəddəs məkanın yerləşdiyi ölkəni[1] islah olunduqdan

[1] Səudiyyə Ərəbistanı nəzərdə tutulur.

sonra fəsada doğru sürüklədiyi, xüsusən də onların Ciddə şəhərində keçirdikləri əxlaqi bir faciə hesab olunan “Xədicə bint Xuveylid” adlı konfransdan sonrakı bir zamanda Əhli Sünnənin bir-birilərini cərh edərək uzaqlaşması kimi əməllərdən əsla razı qala bilməz. Həmin konfransa rədd olaraq “Gərək qadınların inqilabı üçün Xədicə bint Xuveylidin adı ünvan kimi istifadə olunmasın.” - adlı məqalə yazmışam.

İzzət və Cəlal sahibi olan Allahdan diləyim odur ki, hər bir məkanda Əhlis-Sünnə vəl-cəmaanı Sünnədən yapışmağa, öz aralarında mehriban olmağa, yaxşılıq və təqva üzərində əməkdaşlıq etməyə, ixtilaf və təfriqəyə səbəb olan amillərdən uzaqlaşmağa müvəffəq etsin. Həmçinin Uca Allahdan diləyirəm ki, bütün müsəlmanları dində elmli olmağa və haqq üzərində sabit olmağa müvəffəq etsin. Peyğəmbərimiz Muhəmmədə, onun ailəsinə və səhabələrinə Allahın salavatı, salamı və bərəkəti olsun.

**Abdulmuhsin ibn Həməd əl-Abbad əl-Bədr**
**Hicri. 16/01/1432.**

# M Ü N D Ə R İ C A T

Müqəddimə ........................................................ 3
Danışma və açıqlama neməti haqqında ........................ 7
Yalnız xeyir söz söyləməklə dili qorumaq barəsində .......... 9
Zənn və casusluq etmək barədə .................................. 18
Mülayimlik, yumşaqlıq barədə ................................... 21
Alim xəta etdiyi zaman Əhli Sünnə val-camaanın mövqeyi. Bu zaman həmin alim üzürlü hesab olunmalı, bidətçi hesab olunaraq tərk edilməməlidir ................ 24
Dövrümüzdəki bəzi Əhli Sünnə alimlərinin cərh olunaraq tərk olunmaları fitnəsi və bundan yaxa qurtarmağın yolu ........................................................ 34
Növbəti dəfə ey Sünnə əhli bir-birinizlə mehriban davranın ........................................................ 51